DİQQƏT!

SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.
**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 163 (6127) 18 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## Sumqayıt Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir

*İlham Əliyev: "Bu gün biz Sumqayıt Kimya Sənaye Parkının timsalında yeniləşən, güclənən Azərbaycanı görürük"*



Bax 2

## Qarabağa erməni ailələri deyil, yaxşı təlim keçmiş erməni silahlıları köçürülür

*Dağlıq Qarabağ münaqişəsi atrafında baş verənlər, Ermənistanın danışıqlardan yayınaraq, qanunsuz məskunlaşma apararaq müharibə ritorikasından çıxış etməklə müharibəni qaçılmaz edir. Ermənistan Livandan Azərbaycanın işğal olunmuş ərazilərinə erməni ailələrini deyil, yaxşı təlim keçmiş erməni silahlılarını köçürür. Bununla yanaşı, qeyd edək ki, Azərbaycanın işğal olunmuş ərazilərinə ermənilər təkcə Livan və Suriyadan köçürülmür. Vaxtilə Misir ermənilərinin də Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində hərbi hazırlıq keçməsi barədə sənədli faktlar mövcuddur...*



Bax 4

## "5-ci kalonun" pusquda yatan satqın dələduzları...

Dahilərin ermənilər haqqında dedikləri fikirləri oxuduqca dəhşətə gəlirsən, bir daha onların kimliyindən xəbərdar olursan. Bu gün erməni həyasızlığı və təcavüzkarlığı o qədər həddini aşıb ki, bir daha...



Bax 13

## Ermənistanın BMT-də növbəti uğursuzluğu



## İran-Azərbaycan sərhədində atışma olub, ölən var

Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir. DSX-nin Mətbuat Mərkəzindən Səs TV-yə bildirilib ki, 2020-ci ilin 17 sentyabr tarixində külli miqdarda narkotik...



Bax 10

## Bəzi alış-verişlərə görə ƏDV-ni niyə geri almaq olmur?



## Nəqliyyat vasitələrinin üzərinə həbs hansı qaydada qoyulur?




## Bəhruz Quliyev: "Dövrün tələbi, əsas prioritet istiqamətlərdən biri korrupsiyanın, rüşvətxorluğun yığışdırılmasıdır"



Bax 6

## Bizi aparan yollar: Hara gedir, hansı vəziyyətdədir, nəyi dəyişir?



Bax 9

## Vüqar Rəhimzadə: "Açıq hökumət prinsiplərinin tətbiqi həyata keçirilən siyasətin əsas istiqamətlərindəndir"



Bax 6

# Sumqayıt Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir

## *İlham Əliyev: “Bu gün biz Sumqayıt Kimya Sənaye Parkının timsalında yeniləşən, güclənən Azərbaycanı görürük”*

***Müasir istehsal infrastrukturuna malik sənaye parklarının yaradılması ölkədə sənaye sahələrinin inkişafının, ölkə iqtisadiyyatının tarazlı inkişafının təmin edilməsini, habelə istehsal sahələrinin və onun innovasiya istiqamətinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına yönəldilib. Sənaye parklarının yaradılması, həm də ölkənin qeyri-neft sektorunun davamlı inkişafı, ölkə iqtisadiyyatının ixrac qabiliyyətinin, eləcə də rəqabətqabiliyyətli, idxalı əvəz edən məhsulların istehsalının artırılması, ətraf rayonlarda məşğulluğun təmini, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi öncül vəzifələrin yerinə yetirilməsi baxımından xüsusilə əhəmiyyətlidir.***



Prezident İlham Əliyev tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası nəticəsində son illərdə iqtisadiyyatın qeyri-neft sektorunun davamlı inkişafına nail olunub. Buna imkan yaradan əsas amillərdən biri özəl sektorun inkişafının diqqət mərkəzində saxlanılmasıdır. Təsadüfi deyildir ki, dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri məhz özəl sektorun hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir. Bütün bunlar dünyada maliyyə və iqtisadi böhranın davam etdiyi bir dövrdə Azərbaycan iqtisadiyyatının dinamik inkişaf etməsinə geniş imkanlar açıb. Azərbaycanda iqtisadiyyatın bütün istiqamətləri sürətlə inkişaf edir, dünya standartlarına uyğun müasir iqtisadi infrastruktur formalaşır. Təbii ki, bu yüksəliş doğma Sumqayıtımızın da timsalında aydın görünür. Sumqayıt nəinki Azərbaycanın, eyni zamanda Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir.

Son illər Sumqayıtda onlarca yeni istehsal müəssisələrinin yaradılması, bir sıra ənənəvi istehsal sahələrinin fəaliyyətinin canlandırılması bunu əyani təsdiq edir. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin daha da inkişaf etdirdiyi uğurlu iqtisadi və sosial siyasət nəticəsində regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının uğurla icrası Sumqayıt şəhərinin taleyində yeni bir səhifə açdı. Sumqayıt Texnologiyalar Parkının, Sumqayıt Kimya Parkının yaradılması ölkə başçısının şəhərdə sənayenin inkişafına göstərdiyi böyük dəstəyin təzahürüdür. Sentyabrın 16-da Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının nəzdindəki Peşə Təhsil Mərkəzinin açılışında bir çox mühüm amillər barədə danışıb və bildirib ki, böyük işlərə nail olunub.



### “Biz daxili tələbatı nə qədər mümkünsə, yerli məhsullar hesabına təmin etməliyik”

Prezident İlham Əliyev açılış zamanı son illər çox böyük işlərin görüldüyünü bildirib: “Biz son illərdə bu işləri görməklə buna böyük dərəcədə müvəffəq olmuşuq. İndi əsas işimiz ondan ibarətdir ki, baxmalıyıq, harada bizdə idxaldan asılılıq daha böyükdür və bunu əvəzləmək mümkündürsə, bunun üçün xammal varsa, yaxud da texniki-iqtisadi əsaslandırma buna imkan verirsə, mütləq həmin sahələrə böyük diqqət göstərilməlidir. Belə təşəbbüs göstərən şirkətlərə həm rezident statusu verilməlidir, eyni zamanda, dövlət tərəfindən onlara kömək göstərilməlidir, güzəştli kreditlər ayrılmalıdır ki, biz idxaldan asılılığımızı maksimum dərəcədə azaldaq. Çünki hər bir ölkə buna çalışır və xüsusilə əhalisi artan ölkə - Azərbaycan buna mütləq çalışmalıdır”.

### “Təbii ki, bizim neft yataqlarımız nə vaxtsa tükənəcək”

Dövlət başçısı bildirib ki, tədiyə balansını müsbət səviyyədə saxlamaq üçün əlbəttə ki, bizə çox keyfiyyətli ixracyönümlü məhsul istehsal edən, valyuta gətirən müəssisələr lazımdır: “Düzdür, biz yaxın müddətdə həm yeni neft, həm də qaz yataqlarının istismarına başlayacağıq, çalışacağıq ki, hasilat səviyyəsi sabit olaraq qalsın. Ancaq bizim əsas gəlir mənbəyimiz olan “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarında təbii tənəzzül də qaçılmazdır. Biz bu boşluğu məhz qeyri-neft sektoru hesabına təmin etməliyik. Tədiyə balansını müsbət səviyyədə saxlamaq üçün əlbəttə ki, bizə çox keyfiyyətli ixracyönümlü məhsul istehsal edən, valyuta gətirən müəssisələr lazımdır. Çünki bu gün tədiyə balansımızın müsbət səviyyədə saxlanmasının əsas səbəbi neft-qaz amilidir. Amma biz çalışmalıyıq ki, bu amili kənara qoymaqla ixrac-idxal əməliyyatlarında həmişə müsbət saldoya malik olaq. Ona görə ixracyönümlü və idxalı əvəzləyə biləcək istehsalat sahələri mütləq yaradılmalıdır. Burada siqaret fabriki fəaliyyətə başlayıb və artıq statistikada görürük ki, idxaldan asılılıq nə qədər azalıbdır”.

### <u>Prezident İlham Əliyev göstəriş verdi:</u> “Sənaye Parkının gələcək inkişafı ilə bağlı təkliflər hazırlayın”

Prezident İlham Əliyev bildirdi ki, yeni seçilmiş yerlərin seçilməsi şərt deyil ki, bu əraziyə bitişik olsun, buradan bir qədər kənarda ola bilər, amma əsas odur ki, bu yerə rezident statusu veriləcəkdir: “Sənaye Parkının gələcək inkişafı ilə bağlı təkliflər hazırlayın, yerləri seçin. Çünki yenə də deyirəm, belə templə ki, biz gedirik 2-3 ilə bütün bu yerlər dolacaq və 508 hektarda yer qalmayacaq. Ona görə baxın, harada biz bunu davam etdirə bilərik. Şərt deyil ki, bu əraziyə bitişik olsun, buradan bir qədər kənarda ola bilər, amma əsas odur ki, bu yerə rezident statusu veriləcəkdir. Təmizlik, kommunikasiya işlərinə bəlkə də elə bu ildən, vaxt itirmədən başlamaq olar. Çünki bu da vaxt aparacaq. Biz o zaman bu ərazini təmizləyəndə buna təqribən bir il vaxt lazım oldu. Həm təmizləmə, ondan sonra kommunikasiya işləri. Ona görə bəlkə ilin sonuna qədər müəyyən vəsait də ayrıla bilər ki, yeni seçilmiş yerdə biz bu işləri görək, növbəti investorlar artıq maraq göstərəndə vaxt itirməsinlər”.

**Ardı Səh. 3**

# Sumqayıt Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir

## *İlham Əliyev: "Bu gün biz Sumqayıt Kimya Sənaye Parkının timsalında yeniləşən, güclənən Azərbaycanı görürük"*

Əvvəli Səh. 2

**Prezident Sumqayıtdakı siqaret fabriki haqqında: "Biz 300 milyon manata qənaət etmişik"**

Prezident İlham Əliyev Sumqayıtda siqaret fabrikiinin fəaliyyəti ilə bağlı bildirib ki, 300 milyon manata qənaət edilibdir: "Sumqayıtda siqaret fabriki fəaliyyətə başlayıb və artıq statistikada görürük ki, idxaldan asılılıq nə qədər azalıbdır. Çünki biz bu fabrik işə düşənə qədər daha çox idxaldan asılı idik. İndi biz 300 milyon manata qənaət etmişik". Həmçinin, fabrikin inkişaf potensialının da olduğunu deyən dövlət başçıs bildirib ki, bu fabriki gələcəkdə sırf ixracyönümlü müəssisə kimi görürəm: "Mən fabrikin açılışında demişdim, çalışın ikinci, üçüncü xətləri də qurun ki, istehsalat artsın və biz bu məhsulu ixrac edə bilək. O vaxt da demişdim, mən elə onu istəyirəm ki, bu məhsulun hamısı ixraca getsin, Azərbaycanda heç kim siqaret çəkməsin və daxili tələbat olmasın. Amma əlbəttə ki, bu, mümkün deyil, ancaq buna çalışmalıyıq. O cümlədən təbliğat işlərimizi düzgün qurmalıyıq, bundan başqa, təbii ki, qadağalar qüvvəyə minibdir. Ona görə mən bu fabriki gələcəkdə sırf ixracyönümlü müəssisə kimi görürəm və belə misallar çox gətirmək olar. İndi bizim tütün istehsalımız, keyfiyyətli avadanlığımız var. Mən deyirdim ki, tütün istehsalı olmayan bəzi ölkələr nə üçün bizə məhsul ixrac edir. Onlar tütünü xaricdən alırlar və sonra onu emal edib satırlar. Düzdür, siz də bilirsiniz ki, siqaret istehsalında biz xarici tütündən də asılıyıq. Ancaq qarşıya vəzifə qoyulub ki, yerli tütünçülərdən də məhsul alınsın və beləliklə, kənd təsərrüfatının inkişafına da təkan verilsin".



**Sumqayıt Kimya Sənaye Parkının timsalında yeniləşən, güclənən Azərbaycan**

"Bu gün biz Sumqayıt Kimya Sənaye Parkının timsalında yeniləşən, güclənən Azərbaycanı görürük" deyən dövlət başçısı bildirib ki, böş sahələrin hamısı istifadə olunmalıdır: "Xüsusilə yada salmalıyıq ki, bu ərazidə nələr olub, biz bu qərarı verəndə bu ərazi hansı vəziyyətdə idi. Çürümüş, dağılmış, fəaliyyətini başa vuran müəssisələr, həm ekoloji fəlakət zonası, həm də ki, istifadəsiz qalan torpaqlar idi. İndi isə burada yüzlərlə hektar sahədə sənaye parkı qurulubdur".

"Bu il Sumqayıtda şüşə istehsalı zavodu da fəaliyyətə başlayacaq", -deyən dövlət başçıs bildirib ki, şəhərin potensialı daha da güclənir: "Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Sumqayıtın potensialı daha da güclənir. Bu il burada şüşə istehsalı zavodu da fəaliyyətə başlayacaq. Oraya da böyük investisiyalar qoyulub və bizi şüşə ilə təmin edəcəkdir. Baxmayaraq ki, indi tikinti sektoru pandemiyaya görə bir qədər tənəzzülə uğrayıb, amma o, bərpa edilir və ediləcək. Biz özümüzü yerli şüşələrlə təmin edəcəyik. Bu da böyük nailiyyətdir. Biz daxili tələbatı nə qədər mümkünsə, yerli məhsullar hesabına təmin etməliyik. Burada Sumqayıt şəhərinin və xüsusilə Kimya Sənaye Parkının mühüm rolu var. Çünki biz son illərdə bu işləri görməklə buna böyük dərəcədə müvəffəq olmuşuq. İndi əsas işimiz ondan ibarətdir ki, baxmalıyıq, harada bizdə idxaldan asılılıq daha böyükdür və bunu əvəzləmək mümkündürsə, bunun üçün xammal varsa, yaxud da texniki-iqtisadi əsaslandırma buna imkan verirsə, mütləq həmin sahələrə böyük diqqət göstərilməlidir. Belə təşəbbüs göstərən şirkətlərə həm rezident statusu verilməlidir, eyni zamanda, dövlət tərəfindən onlara kömək göstərilməlidir, güzəştli kreditlər ayrılmalıdır ki, biz idxaldan asılılığımızı maksimum dərəcədə azaldaq. Çünki hər bir ölkə buna çalışır və xüsusilə əhalisi artan ölkə - Azərbaycan buna mütləq çalışmalıdır".

"Biz daxili tələbatı nə qədər mümkünsə, yerli məhsullar hesabına təmin etməliyik"

Prezident İlham Əliyev bildirib ki, əsas işimiz idxaldan asılılığı aradanğ götürməkdir: "Biz son illərdə bu işləri görməklə buna böyük dərəcədə müvəffəq olmuşuq. İndi əsas işimiz ondan ibarətdir ki, baxmalıyıq, harada bizdə idxaldan asılılıq daha böyükdür və bunu əvəzləmək mümkündürsə, bunun üçün xammal varsa, yaxud da texniki-iqtisadi əsaslandırma buna imkan verirsə, mütləq həmin sahələrə böyük diqqət göstərilməlidir. Belə təşəbbüs göstərən şirkətlərə həm rezident statusu verilməlidir, eyni zamanda, dövlət tərəfindən onlara kömək göstərilməlidir, güzəştli kreditlər ayrılmalıdır ki, biz idxaldan asılılığımızı maksimum dərəcədə azaldaq. Çünki hər bir ölkə buna çalışır və xüsusilə əhalisi artan ölkə - Azərbaycan buna mütləq çalışmalıdır".

Göründüyü kimi, Azərbaycanda neft-kimya sənayesinin perspektiv inkişafına xüsusi diqqət yetirən Prezident İlham Əliyevin Sumqayıtda bir çox müəssisəni özündə birləşdirəcək Kimya Sənaye Parkının yaradılması ilə bağlı təşəbbüsü bu sahənin ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməsini bir daha təsdiq edir. Prezidentin son zamanlar Sumqayıta çoxsaylı səfərləri, Kimya Sənaye Parkında yaradılan müəssisələrə olan diqqəti, bununla bağlı tapşırıq və tövsiyələri də bütövlükdə Azərbaycanın neft-kimya sənayesinin perspektiv inkişafına göstərilən qayğının real təzahürüdür. Çünki Azərbaycan qüdrətli, tərəqqi yolunda addımlayan ölkələrdəndir və bu yol daha yüksək nailiyyətlərin əldə olunmasına aparacaq.

**RƏFİQƏ KAMALQIZI**

## Belarus XİN ermənilərin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz köçürülməsi barədə məlumatlandırılıb

***Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlardan geri çəkilib, hər cür vəchlə status-kvonu saxlamağa çalışır, beynəlxalq hüquq normalarına və prinsiplərinə zidd olaraq demoqrafik vəziyyəti dəyişmək üçün Suriyadan və Livandan erməni ailələrini qeyri-qanuni şəkildə Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirir.***



AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Belarusdakı səfiri Lətif Qəndilov bu ölkənin Xarici İşlər nazirinin yeni təyin edilmiş birinci müavini Aleksandr Quryanovla görüşündə məlumat verib.

Səfir, həmçinin Ermənistan-Azərbaycan münaqişəsinə dair, o cümlədən iyulun 12-16-da Tovuz istiqamətində Ermənistan silahlı qüvvələrinin ölkəmizin ərazisinə qəflətən hücumu, bu təxribatın əsas səbəb və məqsədləri barədə geniş məlumat verib. L.Qəndilov vurğulayıb ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz tikinti işləri aparır, tarixi abidələrimizi kütləvi surətdə məhv edərək tarixi saxtalaşdırmağa çalışır.

Görüş zamanı Azərbaycan-Belarus münasibətlərinin iqtisadi-ticari sahədə əsas istiqamətləri müzakirə edilib. Eyni zamanda, tərəflər beynəlxalq təşkilatlar və inteqrasiya birlikləri çərçivəsində ölkələrimiz arasında əməkdaşlığı və birgə tədbirlərin keçirilməsi ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparıblar.

## Sudanın "Awalalnahar" qəzeti Azərbaycan XİN-in açıqlamasını yayıb

***Sudanın geniş oxucu kütləsinə malik "Awalalnahar" qəzeti Azərbaycan Xarici İşlər Nazirliyi Mətbuat xidməti idarəsinin Ermənistanın Xarici İşlər naziri Z.Mnatsakanyanın Misir Ərəb Respublikasına səfəri çərçivəsində səsləndirdiyi cəfəng fikirlərlə bağlı açıqlamasını yayıb.***



AZƏRTAC xəbər verir ki, yazıda həmin fikirlərin yüz minlərlə müsəlman azərbaycanlını qanlı etnik təmizləməyə məruz qoyaraq evlərindən didərgin salan, Xocalıda bir gecədə 613 mülki şəxsi yalnız azərbaycanlı və müsəlman olduqları üçün qəddarlıqla qətlə yetirən, Azərbaycanın işğal olunmuş ərazilərində müsəlman irsini dağıdan, məscidləri talan edən bir ölkənin rəsmisinin riyakarlığının bariz nümunəsi olduğu sudanlı oxucuların diqqətinə çatdırılır. Bildirilir ki, dövlət siyasətinin ideoloji əsasını terrorçuluq təşkil edən Ermənistan 1980-ci illərin sonu 1990-cı illərin əvvəllərində Azərbaycana qarşı terror əməliyyatlarından geniş istifadə edib. Azərbaycan ərazisində sərnişin avtobuslarının, qatarların və Bakıda metro stansiyasının partlayışı ilə müşayiət olunan 30-dan çox terror aktı nəticəsində 2000-dən çox mülki şəxs həlak olub.

Sudan ictimaiyyətinə məlumat verilir ki, 1970-1980-ci illərdə ASALA və digər erməni terror təşkilatları dünyanın 22 ölkəsində 235-dən çox terror aktı törədib. Qardaş Türkiyənin 24 diplomatı erməni terrorçuluğunun qurbanı olub. Bütün bu sadalananlar fonunda təcavüzkar Ermənistanın Xarici İşlər nazirinin müsəlman ölkələri ilə dostluq və sıx əməkdaşlıqdan bəhs etməsi, regional və qlobal təhlükəsizlikdən danışması cəfəngiyyatdan başqa bir şey deyil.

## Sahibə Qafarova Moskvaya səfərə gedəcək



Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova Moskvaya səfərə gedəcək. SİA xəbər verir ki, barədə Rusiya Federasiya Şurasının mətbuat xidməti məlumat yayıb. Məlumatda bildirilib ki, sentyabrın 22-də Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko S.Qafarova ilə görüşəcək. Görüş zamanı ikitərəfli əməkdaşlıq müzakirə olunacaq. S.Qafarovanın sentyabrın 23-də Federasiya Şurasının payız parlament sessiyasının birinci iclasında çıxışının planlaşdırıldığı da qeyd olunub.

## Türkiyəli professor: "Livan ermənilərinin Azərbaycanın işğal olunmuş ərazilərində məskunlaşdırılmasının qarşısı alınmalıdır"



Avqustun 4-də Livanın paytaxtı Beyrutda baş verən partlayış nəticəsində çox sayda insan həyatını itirdi və yaralandı, evsiz-eşiksiz qalanlar oldu. Bu fürsətdən istifadə edən Ermənistan rəhbərliyi Livan ermənilərinin işğal altındakı Azərbaycan ərazilərində məskunlaşdırılması prosesinə başladı. Bu qanunsuz köçürülmə ciddi problemlər yarada bilər. Bu fikirləri AZƏRTAC-a açıqlamasında tarixçi alim, Qazi Universitetinin professoru Selma Yel söyləyib.

Bundan əvvəl də yaranmış böhrandan istifadə edərək Suriya ermənilərinin işğal altındakı Azərbaycan torpaqlarında yerləşdirildiyini vurğulayan alim deyib: "Baş verənlərə diqqət edəndə görürük ki, tarixi proseslər yenə də yurdundan edilən ermənilər vasitəsilə təkrarlanır. Belə bir məsəl var: su yatar, düşməz yatmaz. Təxminən iki yüz il əvvəl başlanan ermənilərin bölgədə məskunlaşdırılması siyasəti bu gün də dəyişməyib. Ermənistanın işğalçılıq siyasətinə beynəlxalq hüquq çərçivəsində son verilməlidir. Əks halda, xarici ölkələrdən köçürülən ermənilərin qanunsuz məskunlaşdırılması ilə Qarabağ münaqişəsinin həlli mümkünsüz hala salına bilər. Livan ermənilərinin işğal altındakı Azərbaycan torpaqlarına qanunsuz köçürülməsinin humanist məqsəd daşımadığı əsaslandırılmalı və prosesin dayandırılmasına nail olunmalıdır. Bütün dünyaya açıq şəkildə bəyan edilməlidir ki, bölgədə baş verən xoşagəlməz hadisə və proseslərin məsuliyyəti Ermənistanın üzərinə düşür.

# Qarabağa erməni ailələri deyil, yaxşı təlim keçmiş erməni silahlıları köçürülür

***"Dağlıq Qarabağ münaqişəsi atrafında baş verənlər, Ermənistanın danışıqlardan yayınaraq, qanunsuz məskunlaşma apararaq müharibə ritorikasından çıxış etməklə müharibəni qaçılmaz edir. Ermənistan Livandan Azərbaycanın işğal olunmuş ərazilərinə erməni ailələrini deyil, yaxşı təlim keçmiş erməni silahlılarını köçürür.***



Bununla yanaşı, qeyd edək ki, Azərbaycanın işğal olunmuş ərazilərinə ermənilər təkcə Livan və Suriyadan köçürülmür. Vaxtilə Misir ermənilərinin də Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində hərbi hazırlıq keçməsi barədə sənədli faktlar mövcuddur. Bu faktı jurnalist işləyən Misir ermənisi Üsamə Eidanın çəkdiyi sənədli videokadrlar təsdiq edir. Bu kadrlarda Misir ermənilərinin Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazilərində hərbi düşərgələrdə təlim keçdiyi görünür. Bütün bu cəhdlər regionun demoqrafik tərkibinin dəyişdirilməsinə yönəlib". Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib.

Onun sözlərinə görə, BMT qətnamələrinə əsasən, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərini azad etməlidir, amma buna baxmayaraq, bu ölkənin hakimiyyəti erməni diasporunun dəstəyi ilə bu qətnamələri icra etmir: "ATƏT-in Minsk Qrupu isə Ermənistanın danışıqlardan yayınmasına, qanunsuz məskunlaşma aparmasına və müharibə ritorikasından çıxış etməsinə susqunluq nümayiş etdirir. ATƏT-in Minsk Qrupunun həmsədrləri atdıqları addımlara hörmətlə yanaşmalıdırlar. Deklorativ bəyanatlar, lazımsız görüşlər keçirmək əsas prioritet olmamalıdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş konkret addımlar atılmalıdır. Ermənistan hakimiyyətinin, qondarma qurumun siyasi və digər problemlərlə bağlı verdikləri bəyanatlara ATƏT-in Minsk Qrupu ciddi reaksiya verməlidir. Bu, miqrasiya, silahlanma, müharibə anonsu və digər məsələlərlə bağlıdır. ATƏT həmçinin vermiş olduğu bəyanatların praktik olaraq həyata keçirilməsinə çalışmalıdır. Əks halda bu görüşlərin heç bir əhəmiyyəti olmayacaq. Amma buna baxmayaraq, sülh danışıqları bütün hallarda dəstəklənir".

Politoloq bildirib ki, reallıqda isə başqa mənzərənin şahidi oluruq: "Çünki istər qondarma qurumun, istərsə də Ermənistanın hərbi-siyasi rəhbərliyinin məqsədi mövcud status-kvonun qorunub saxlanılmasından ibarətdir. Eyni zamanda, düşmən tərəfinin bəyanatları və çirkin addımları ATƏT-in gözü qarşısında baş verir. Ona görə də bu görüşlərdən hansısa müsbət irəliləyişlə bağlı gözləntilər öz aktuallığını itirib. Çünki humanitar və digər sahələrdə ATƏT-in Minsk Qrupu vermiş olduğu qərarların icrasına təsir edən vacib addımlar atmalıdır. Hal-hazırda danışıqlar dalana dirənib və danışıqlar prosesi getmir. Azərbaycan tərəfi olaraq öz şərtlərimizi ortaya qoymuşuq. Azərbaycan tərəfinin istəyi və əsas məqsədi ondan ibarətdir ki, ərazi bütövlüyümüz bərpa edilsin".

İ.Hüseynov vurğulayıb ki, danışıqlar bir nəticə verməsə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişənin sonu böyük müharibə ilə nəticələnə bilər: "Belə olan halda, artıq regional aktorlar deyil, eyni zamanda, digər dövlətlər də beynəlxalq səviyyədə bundan zərər çəkəcəklər. Ermənistan təxribatçı hərəkətləri ilə regionda müharibə ocağını alovlandırmaq istəyir. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanla qardaş Türkiyə arasında hərbi müttəfiqlik istiqamətində çox ciddi addımlar atılıb, birgə təlimlər həyata keçirilib. Ümid edirik ki, Azərbaycanın və Türkiyənin birgə səyləri nəticəsində regionda baş verə biləcək istənilən ssenarinin qarşısını almaq mümkün olacaq".

*Aysel Məmmədova*

# YAP Səbail rayon təşkilatında məzunlarla görüş keçirilib

***Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatında 2020-2021-ci il tədris ili üçün ali məktəblərə keçirilən qəbul imtahanlarında yüksək bal toplayaraq tələbə adını qazanmış məzunlarla görüş keçirilib.***





SİA-nın verdiyi məlumata görə, YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev tələbə qəbulu imtahanlarında Səbail rayonu üzrə xüsusi fərqlənərək ən yüksək nəticələri əldə edən gənclərimizin timsalında bu il Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş bütün tələbələri, onların valideynlərini, müəllimlərini ürəkdən təbrik etdi, onlara təhsildə, elmdə, ictimai-siyasi fəaliyyətlərində və şəxsi həyatlarında uğurlar arzuladı.

Ş.Hacıyev Azərbaycanın milli təhsil sisteminin inkişafı, ölkəmizdə formalaşmış özünəməxsus təhsil sistemi, bütün təhsil pillələri üzrə qanunvericilik bazası, Ulu Öndər Heydər Əliyevin təhsilə, elmə, gənclərə verdiyi yüksək dəyər, möhtərəm Prezidentimiz İlham Əliyevin təhsil siyasəti, neft kapitalının insan kapitalına çevrilməsi istiqamətində Azərbaycanda əldə olunan uğurlar haqqında gənclərə geniş məlumat verdi. Vurğulandı ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu tərəfindən təhsil sektorunda önəmli layihələr, proqramlar həyata keçirilmiş, xüsusilə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində ölkəmizdə yüzlərlə yeni məktəb tikilmiş, mövcud məktəblər əsaslı təmir olunmuş və ən müasir təhsil texnologiyaları və avadanlıqları ilə təchiz olunmuşdur.

Müasir dövrdə Azərbaycan gəncliyinin qarşısında duran əsas məqsəd və vəzifələrə xüsusi diqqət çəkən Ş.Hacıyev bildirdi ki, gənclərimiz öz tarixi köklərinə, milli-mənəvi dəyərlərinə bağlı Vətəninə, dövlətinə ləyaqətlə xidmət edən etibarlı vətəndaşlar və qlobal çağırışlara uyğun yüksəkixtisaslı mütəxəssislər kimi formalaşmalıdırlar. Bu məqsədlə gənclərimiz ilk növbədə yaxşı təhsil almalı, xarici dilləri öyrənməli, son texnoloji biliklərə yiyələnməli, daim öz üzərlərində işləməli və yüksəkixtisaslı kadrlar kimi müstəqil dövlətimizin daha da qüdrətlənməsi üçün çalışmalıdırlar.

Ş.Hacıyev Yeni Azərbaycan Partiyasının yaranması və inkişaf tarixi, eləcə də YAP Səbail rayon təşkilatının ictimai-siyasi fəaliyyəti haqqında gənclərə geniş məlumat verərək gənclərimizi asudə vaxtlarından səmərəli istifadə etməyə, ölkəmizdə gedən çoxşaxəli siyasi proseslərə biganə qalmamağa və sağlam vətəndaş mövqeyi bildirməyə dəvət etdi.

Görüşdə iştirak edən tələbələr ölkəmizdə gənclərə göstərilən diqqət və qayğıya, yaradılan şəraitə görə dövlət başçısı cənab İlham Əliyevə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildirərək qeyd etdilər ki, müasir, vətənpərvər və milli-mənəvi dəyərlərinə bağlı olan Azərbaycan gəncliyi müstəqil dövlətimizin gələcək inkişafı üçün öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklər.

Sonda ali məktəblərə keçirilən qəbul imtahanlarında Səbail rayonu üzrə yüksək bal toplayan tələbələrə xatirə hədiyyələri və Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinə, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən və Azərbaycan xalqının milli maraqlarına söykənən çoxşaxəli dövlət siyasətinə həsr olunan kitablar təqdim olundu. Görüş iştirakçıları Ümummilli Lider Heydər Əliyevin büstü önündə xatirə şəkilləri çəkdirdilər.

*Ceyhun Rasimoğlu*




# Tovuz təxribatı Ermənistanın “yeni ərazi - yeni müharibə” formuluna keçdiyinə dəlalət edir

***Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi olduqca mürəkkəb və həlli müşkülə çevrilmiş bir münaqişədir. Qarsıduran tərəflərdən savayı, “üçüncü tərəflərin” bu münaqişədə kifayət qədər mühüm geosiyasi və geoiqtisadi maraqları var. Rusiya, İran və Türkiyə daim bu münaqişənin neqativ təsirini hiss edirlər. “Status-kvo”nun sürüşkən olması region ölkələrinin sərhəd təhlükəsizliyinə ciddi təhdid edir. Münaqişənin hərbi fazasının bərpa olacağı təqdirdə, onun asanlıqla eskalasiyasına gətirə bilər. Çünki münaqişə ətrafında maraqlı qüvvələr həm fərdi, həm də kollektiv (ittifaq) şəkildə siyasət həyata keçirirlər. Bu da istər-istəməz hərbi əməliyyatlar zamanı kənar müdaxilələrin olacağını və nəticədə, münaqişənin genişmiqyaslı hərbi əməliyyatlar səhnəsinə çevriləcəyini istisna etmir. 2016-cı ilin aprel savaşından sonra Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dondurulmuş münaqişə kimi baxılmır.***

İşğal olunmuş ərazilərimizdə transmilli təhdidlərin bütün təzahürlərinin mövcudluğu dünyanın bir parçası olan Cənubi Qafqazın təhlükəsizliyinə ciddi təhdiddir. Regionda ümumi maraqlara cavab verən təhlükəsizlik sisteminin yoxluğu, xarici qüvvələrin ikili standart siyasəti, etnik, dini və sivilizasiya fərqlərinin ayırıcı xətlərə çevrilməsi hər an “status-kvo”nun pozulmasına rəvac verə bilər. Münaqişənin həlli perspektivlərinin dalana dirənməsi regionun hələ bir müddət də transmilli təhdidlərin əsarətində qalacağını deməyə əsas verir.

Münaqişədə daxili, dövlətlərarası və transmilli amillərin sıx uzlaşması onun yaxın gələcəkdə həlli ehtimalının üzərindən çarpaz xətt çəkir. Münaqişənin uzunmüddətli “nə hərb, nə sülh” dilemmasında qalması ona dəlalət edir ki, onun tənzimlənməsində müəyyən həll planlarının olmasına baxmayaraq, Cənubi Qafqazda “realpolitik” ön plandadır. Post-aprel mərhələsində “realpolitik”ə rəvac verən amillər aşağıdakılardır:

Birincisi, Aprel döyüşlərindən sonra Ermənistanın ciddi səylə qızğın silahlanma kursunu davam etdirməsi və Azərbaycana qarşı aqressiv ritorikanın tonunu yüksəltməsidir. Həmin döyüşlərdən sonra, xüsusən də 2018-ci ildə ölkədə baş vermiş məxməri inqilabdan sonra müdafiə büdcəsinin kəskin artımı baş verib. Ümumiyyətlə, Ermənistanın 2020-ci ildə müdafiə xərcləri 2018-ci ilə nisbətən 28 faiz artıb. Belə ki, 2019-cu ildə işğalçı ölkə müdafiəyə təxminən 629,5 milyon dollar (2018-ci illə müqayisədə 129 milyon dollar artıb) sərf edib, 2020-ci ilin müdafiə büdcəsi isə təxminən 631 milyon dollar (ötən illə müqayisədə yalnız 1,5 milyon dollar çoxdur) həcmindədir.

Hələ ötən ilin əvvəllərində Ermənistanın müdafiə naziri David Tonoyan yerli İctimai TV-nin efirində Ermənistanın müdafiə strategiyasından hücum strategiyasına keçərək ordu quruluşu fəlsəfəsini dəyişmək niyyətində olması fikrini dilə gətirmişdir. Onun sözlərinə görə, erməni ordusu yeni silahların sayəsində müdafiə strategiyasını dəyişir. Bu, əsasən, Su-30CM və 100 milyon dollar həcmində yeni hərbi kreditin hesabına baş verir. Su-30CM-in köməyilə yüz kilometr məsafədə düşmənin mövqelərinə hücum etmək olar. Xatırladaq ki, 2019-cu ildə Ermənistan Rusiyadan dörd Su-30CM təyyarəsi almış və bu il də həmin təyyarələrin yeni partiyasını alacağı bildirilir. D.Tonoyanın sözlərinə görə, Ermənistan say, demoqrafik və iqtisadi planda Azərbaycanla rəqabət apara bilməz. Odur ki, düşməni neytrallaşdırmağa imkan verəcək silahlar alınacaq.

Bundan əlavə, ötən il ABŞ-da erməni diasporu ilə keçirdiyi görüşdə Ermənistanın müdafiə naziri D.Tonoyan bəyan etmişdir ki, “ərazi qarşılığında sülh” formulunu dəyişərək, onu “yeni ərazilərin işğalı üçün yeni müharibə” formulu ilə əvəzləyib. “Biz bu “xəndək vəziyyətindən”, daimi müdafiə vəziyyətindən çıxacağıq. Biz, hərbi əməliyyatları düşmənin ərazisinə transfer edə biləcək qoşun bölmələrimizin sayını artıracağıq”. Heç şübhəsiz, belə bir silah yarışması şəraitində sülh danışıqlarından daha çox münaqişənin yenidən alovlanması daha real görünür.

İkincisi, Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətə gəldiyi ilk gündən Ermənistan-Azərbaycan münaqişənin həlli perspektivləri ilə bağlı ziddiyyətli fikirləri və ikili mövqeyi müsbət heç nə vəd etmirdi. Belə ki, bir tərəfdən, o, Ermənistan-Azərbaycan sərhədində və tərəflərin təmas xəttində insidentlərin qarşısının alınması məqsədilə atəşkəs rejiminin möhkəmləndirilməsini və bu istiqamətdə hər iki ölkənin müvafiq strukturları arasında operativ əlaqənin qurulması üzrə mexanizmlərin yaradılmasını vacib hesab edirdi. Digər tərəfdən isə, qondarma rejimi danışıqlar prosesinə daxil etməklə formatı dəyişdirmək, 29 ildən sonra yenidən “miatsum” anlayışını dilə gətirməsi və münaqişənin tənzimlənməsi ilə bağlı bəyan etdiyi sərsəm yeddi prinsipi rəsmi İrəvanın məlum münaqişənin həllinə mane olmaq və tənzimlənmə prosesini məqsədyönlü şəkildə uzatmaq, nəticədə isə işğalçılıq siyasətini legitimləşdirmək niyyətindən xəbər verirdi. Onun bu cəhdi Ermənistanın Azərbaycana qarşı gücdən istifadə etməsi nəticəsində yaranmış “fait accompli” (baş vermiş fakt) vəziyyətini möhkəmləndirmək niyyətini nümayiş etdirir.

İki ay öncə Ermənistanın qəbul edilmiş Milli Təhlükəsizlik Strategiyasında (MTS) rəsmi İrəvanın Türkiyə və Azərbaycanı özünə əsas təhdid mənbəyi elan etməsi, Azərbaycanın öz ərazisini güc yolu ilə bərpa etmək cəhdlərini separatçı rejimin erməni əhalisinə qarşı ekzistensial təhdid kimi qələmə verib.

Həmin sənəddə Rusiya Ermənistanın yeganə strateji tərəfdaşı kimi qələmə verilib. Digər ölkələr - ABŞ, ÇXR, Hindistan və s. isə sadəcə dost ölkə və ya strateji dialoq tərəfdarı kimi təqdim edilib. Son bir neçə ildə Ermənistanın Yunanıstan və Kiprlə olan əlaqələrinə xüsusi önəm verilir və bu üçtərəfli əməkdaşlıq formatının genişləndirilməsi istəyi nəzərə çarpır. Həmin ölkələri antitürk maraqları birləşdirir.

Qeyd edilən sənəddə həm maraq, həm də təəccüb doğuran məqamlardan biri də həmin sənədin 4.14-cü maddəsidir. Orada qeyd edilir ki, “Yaxın Şərq ölkələri ilə qarşılıqlı əlaqələrin davamlı genişləndirilməsi prioritetlərimizdəndir. Ermənistan Yaxın Şərqdə regional təhlükəsizlik sisteminin yenidən qurulması proseslərinə cəlb edilməlidir ki, bu da bölgə ölkələrində ermənilərin tarixi varlığını qorumağa yönəldiləcəkdir”. Bu ifadə artıq həmin ölkələrlə ikitərəfli əməkdaşlıqdan xeyli kənara çıxır və Ermənistanın yeni MTS-nin ekspansiv ruhunu izah edir. Onsuz da tarixən müsəlman türklərin əraziləri hesabına “Böyük Ermənistan” yaratmaq istəyən işğalçı ölkə indi də təsir imkanların coğrafi hüdudlarını Yaxın Şərqin ərəb müsəlman ölkələri hesabına genişləndirməyə çalışır. Həmin istəyin arxasında İslam dünyasında Türkiyə-Azərbaycan əlaqələrinə qarşı hərbi-siyasi formatların yaradılması durur. Necə ki, hazırda Ermənistan Aralıq dənizinin şərqində gedən proseslərdə Türkiyəyə qarşı formalaşmaqda olan birlikləri və ölkələr qrupunu açıq şəkildə dəstəkləyir.

Beləliklə, bu ilin 12-16 iyul tarixində baş vermiş Tovuz təxribatı ilə Ermənistanın “yeni ərazi - yeni müharibə” formulunun gerçəkləşməsinə start verdiyini söyləmək olar. Bu formulu həyata keçirməklə işğalçı ölkə hərbi əməliyyatları Dağlıq Qarabağ və ona bitişik rayonlarımızdan yeni ərazilərimizə keçirmək, “təhlükəsizlik zolağı”nı genişləndirmək və Azərbaycanın neft-qaz və digər mühüm infrastrukturları üzərində nəzarəti ələ keçirməkdir. Yeni formula nəfəs vermək məqsədilə Ermənistanın istər Cənubi Qafqazda, istərsə də Yaxın Şərq və Aralıq dənizinin şərq hövzəsində yerləşən ölkələr, xüsusən də müsəlman dövlətlər arasında Türkiyə və Azərbaycan strateji tərəfdaşlığına qarşı bütün əks-addımları dəstəkləyəcəyi istisna edilmir. Ermənistanın xarici işlər naziri Z.Mnatsakanyanın Yaxın Şərq və Şimali Afrika ölkələrinə səfəri düşmən ölkənin labüd müharibəyə ciddi hazırlaşdığı bir şəraitdə gələcək addımlarının diplomatik-siyasi dayaqlarını təmin etməyə çalışdığını göstərir.

***Zəfər Nəcəfov,***
***Silahlı Qüvvələrin Hərbi Akademiyasının Milli Təhlükəsizlik və Humanitar Elmlər kafedrasının baş müəllimi, beynəlxalq münasibətlər üzrə mütəxəssis***
*Newtimes.az*

# Vüqar Rəhimzadə: "Açıq hökumət prinsiplərinin tətbiqi həyata keçirilən siyasətin əsas istiqamətlərindəndir"

***"Dövlət siyasətinin prioritet istiqamətlərindən olan korrupsiyaya qarşı mübarizə tədbirləri həyata keçirilən sosial-iqtisadi və hüquqi islahatların ruhuna uyğun olaraq daha intensiv xarakter alır, ölkəmizdə iqtisadiyyatın liberallaşdırılması, bürokratik əngəllərin aradan qaldırılması, məmur-vətəndaş münasibətlərinin sağlam zəmində qurulması, şəffaflığın və hesabatlılığın təmin edilməsi və digər bu kimi konkret əməli-praktiki addımlarla daha da möhkəmlənir".***



Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, məmur-vətəndaş münasibətlərinin şəffaflığı, məmurların öz fəaliyyətlərində vətəndaş məmnunluğunu əsas hədəf kimi müəyyənləşdirmələri həm respublikada ümumi uğurun təminatıdır, həm də sabitliyin güclənməsinə xidmət edən vacib amillərdən biridir: "Ölkəmizdə ötən ildən geniş vüsət alan struktur islahatları hakimiyyətin bütün qollarının səmərəliliyinin artırılması məqsədini daşıyır. Prezident İlham Əliyev Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edərkən bu hədəfi qarşıya qoymuşdur ki, qanunun aliliyi tam təmin edilməlidir və ədalətli cəmiyyətin qurulması üçün qanunun aliliyi başlıca şərtdir. Bu hədəf fonunda belə bir inam da ifadə edilmişdir ki, yeni Baş prokurorun iş təcrübəsi və peşəkarlığı imkan verəcək ki, bu göstərişlərin icrası təmin edilsin. Təbii ki, bu əminlik, etimad yeni təyinatın Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi vəzifəsində çalışması və bu sahədə zəngin təcrübəyə malik olmasına əsaslanır".

"Möhtərəm Prezidentimiz İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində yeni strateji baxışlar və vəzifələr müəyyən edilib, bu mübarizə keyfiyyətcə yeni müstəviyə keçib", söyləyən baş redaktor qeyd edib ki, Prezident cənab İlham Əliyevin dövlət idarəçiliyində həyata keçirdiyi genişmiqyaslı islahatlar, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında aparılan dəyişikliklərə uyğun olaraq cari ildə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın tərkibi yenilənib. Bu mühüm addım özündə bütün hədəfləri ehtiva edir.

Diqqəti bu günlərdə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının yeni tərkibdə videoformat şəklində keçirilən ilk iclasına yönəldən Vüqar Rəhimzadə bildirib ki, ölkəmizin korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, hərtərəfli və innovativ xarakter daşıyır. Dövlət idarəçiliyində səmərəliliyin təmin edilməsi, açıq hökumət prinsiplərinin tətbiqi, elektron xidmətlərin inkişafı dövlət siyasətinin əsas istiqamətləri kimi daim diqqət mərkəzindədir. Prezident İlham Əliyevin sərəncamları ilə təsdiqlənmiş korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planı, həmçinin açıq hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı bu istiqamətdə işlərin davamlılığına, problemin həllinə olan diqqətin təsdiqidir. Dövlətimizin başçısı İlham Əliyev bu mühüm məqamı da xüsusi qeyd edir ki, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə "ASAN xidmət" bir dönüş yaratdı. Ona görə bu sistem bütün sahələrdə tətbiq edilməlidir. Möhtərəm Prezidentimizin "Azərbaycan bu sahədə də nümunəvi ölkə olmalıdır" məqsədini mühüm vəzifə kimi qarşıya qoyması atılan bütün addımların əsas mahiyyətini təşkil edir.

V.Rəhimzadə qeyd edib ki, dövlət orqanlarının fəaliyyətində şəffaflığın daha da artırılması üçün ictimai nəzarət mexanizmlərinin tətbiqi genişləndirilir, ictimai şuraların fəaliyyətinin səmərəliliyinin təmin olunması iatiqamətində tədbirlər görülür. Ciddi qanun pozuntularına yol vermiş vəzifəli şəxslərin məsuliyyətə cəlb olunması, ictimai nəzarət mexanizmlərinin formalaşdırılması və bu sahədə vətəndaş cəmiyyəti institutlarının fəallığının təşviq edilməsi əsas hədəflərdəndir. Möhtərəm Prezidentimiz yeni kadrları yüksək vəzifələrə təyin edərkən xoşagəlməz hallarla əlaqədar məsləhət və tövsiyələrini, ciddi tapşırıqlarını verməklə yanaşı, bu xəbərdarlığı da onlara çatdırır: "Əgər hansısa dövlət məmuru öz işində düzəlişlər edə bilmirsə, yaxud da ki, istəmirsə, qoy özü könüllü şəkildə dövlət işindən istefa versin".

Baş redaktor vurğulayıb ki, Azərbaycanın uğurları beynəlxalq maliyyə qurumlarının hesabatlarında da təqdir olunur, ölkəmiz bu hesabatlarda birinciliyini qoruyur: "Azərbaycanın daha yüksək pilləyə qalxması üçün imkanlar vardır. Müəyyən bürokratik əngəllərin aradan qaldırılması və biznes mühitinin daha da yaxşılaşdırılması fonunda atılan yeni-yeni addımlar biznes cəvələndə ölkəmizi daha da yüksək pilləyə çıxaracaq".

# Bəhruz Quliyev: "Dövrün tələbi, əsas prioritet istiqamətlərdən biri korrupsiyanın, rüşvətxorluğun yığışdırılmasıdır"



Prezident İlham Əliyevin apardığı daxili siyasətdə korrupsiya və rüşvətxorluğa qarşı mübarizə daim ön plana çəkilib və həyata keçirilən islahatların ən vacib hissələrindən biri olaraq qiymətləndirilir. Bu fikirləri Trend-ə "SƏS" qəzetinin Baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deyib.

Onun sözlərinə görə, Korrupsiya ilə Mübarizə Komissiyasının yeni tərkibinin yaradılması, eləcə də ilk iclasda səslənən fikirlər də bu cür qənaətə gəlməyə kifayət qədər zəmin yaradır: "Cənab Prezident İlham Əliyev məmurları vəzifəyə təyin edərkən onlara ilk tövsiyəsi vətəndaşın yanında olmaqla, vətəndaşa xidmət etməklə, ictimai nəzarəti formalaşdırmaqla hər bir məmurun vətəndaşın xidmətçisi rolunda çıxış etməsi ilə bağlı olub. Dövlətimizin başçısı yüksək vəzifələrə təyin etdiyi bütün məmurlara bu tövsiyələri verir. Sözsüz, zaman və faktlar göstərir ki, bəzən məmurların bəziləri vəzifəsini icra etməyə başladıqdan sonra cənab Prezidentin tələblərini unudur və tamamilə başqa yollar tutur, pul qazanmaq həvəsinə düşür, rüşvətxorluqla, korrupsiya ilə məşğul olur, bu vasitə ilə dövlətin apardığı uğurlu siyasətə xəyanət etmiş olurlar. Bunun da nəticəsidir ki, son dövrlərdə yerli icra hakimiyyəti orqanları rəhbərlərinin bu neqativ fəaliyyətlərinə qarşı ciddi mübarizə aparılır. Dövlətimizin başçısı həmişə çıxışlarında qeyd edib ki, korrupsiyaya qarşı çox amansız mübarizə aparılır, aparılacaq, kimliyindən asılı olmayaraq, heç kəs bu məsələdə sığortalanmayıb".

"Dövrün tələbi, əsas prioritet istiqamətlərdən biri korrupsiyanın, rüşvətxorluğun yığışdırılmasıdır" - deyən siyasi ekspert əlavə edib ki, bəzən sənədləşmə məsələsində rüşvətin tələb olunması cəhdləri ilə bağlı faktlar ortaya çıxır: "Müxtəlif sahələrdə, hətta kənd təsərrüfatı sektorunda sahibkarların, fermerlərin fəaliyyətinə yerli icra hakimiyyəti orqanları əngəllər törədirlər. Onlar hər hansı formada məcbur edirlər ki, vətəndaşlar rüşvət versinlər. Bu cür hallar var. Yaxud sahibkarlıq, biznes fəaliyyəti ilə məşğul olan insanlar bəzi hallarda müxtəlif təzyiqlərlə qarşılaşırlar. Bu da ayrı bir faktdır. Əsas odur ki, bu faktlar gizli qalmır, onlar araşdırılır və bununla bağlı mübarizə həyata keçirilir. Son proseslər də əldə edilən uğurları ehtiva etməkdədir. Cənab Prezidentin qeyd etdiyi kimi, rüşvətxorluqla, korrupsiyaya qarşı amansız mübarizə aparılır. O da yaxşı haldır ki, bundan hər bir vətəndaş məmnun qalır. Ona görə də vətəndaş məmnunluğunun təmin olunması üçün məmur özünün vəzifələrini düzgün icra etməlidir. Necə ki, cənab Prezident İlham Əliyev bütün çıxışlarında, bütün qəbullarında bu tapşırıqları verib. Vətəndaş da öz hüquq və vəzifəsini bilib, o çərçivədə görülən işlərə dəstək olmalıdır".

B.Quliyevin sözlərinə görə, bu istiqamətdə həyata keçirilən tədbirlər təqdirəlayiqdir, xalqın maraqlarına cavab verir: "Rüşvətxorluğa qarşı mübarizə təkcə dövlətin işi deyil, bütün vətəndaşlar fəal olmalı və bu işdə Prezidentə kömək etməlidirlər".

# YAP Qaradağ rayon təşkilatında yüksək bal toplayan gənclərlə görüş keçirilib

Yeni Azərbaycan Partiyası Qaradağ rayon təşkilatının təşəbbüsü ilə bu il ali məktəblərə keçirilən qəbul imtahanlarında yüksək nəticə göstərən gənclərlə görüş keçirilib. YAP Siyasi Şurasının üzvü, partiyanın İcra Katibliyinin təşkilat şöbəsinin müdiri, YAP Qaradağ rayon təşkilatının sədri, millət vəkili Aydın Hüseynov ilk öncə gəncləri təbrik edərək onlara yeni-yeni uğurlar arzulayıb. Ölkəmizdə təhsilə göstərilən dövlət qayğısını yüksək dəyərləndirən millət vəkili qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətə uyğun olaraq Azərbaycanda təhsilin ikişafı prioritet istiqamətlərdən biri hesab olunur. Azərbaycan Prezidenti cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən təhsilə xüsusi diqqət göstərilir, müasir tələblərə uyğun olan yeni-yeni məktəblər tikilir, şagirdlərə, tələbələrə, müəllimlərə dövlət qayğısı artırılır, gənc mütəxəssislər məsul vəzifələrə təyin olunur. Məhz bu səbəbdən də Dünya Bankının son məlumatına görə, Azərbaycan səhiyyə və təhsil sahəsində ən çox irəliləyişə nail olmuş 10 ölkədən biridir.



Təşkilat sədri qeyd edib ki, dünyada pandemiya ilə əlaqədar yaranmış bir sıra çətinliklərə baxmayaraq, ölkəmizdə təhsil infrastrukturunun təkmilləşdirilməsi və təhsil sisteminin müasirləşdirilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir: "Siz isə dövlətimizin təhsilə və tələbələrə olan qayğısından daha da faydalanaraq peşəkar kadr kimi formalaşmağa respublikamızın və xalqımızın inkişafına dəyərli töhfələrinizi verməlisiniz. Bu müqəddəs yolda hər birinizə uğurlar arzulayıram".

Valideynlərin və müəllimlərin də iştirak etdiyi görüşdə Aydın Hüseynov gənclərin qazandığı uğurlara görə onları da təbrik edərək hər birinə dərin təşəkkürünü bildirib.

Görüşdə çıxış edən gənclər ölkəmizdə gənc nəsil üçün yaradılan geniş və hərtərəfli şəraitə görə ölkə Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin təşəkkürlərini bildiriblər. Ölkəmizin ictimai-siyasi həyatında Yeni Azərbaycan Partiyasının rolunun son dərəcə böyük olduğunu qeyd edən gənclər dövlətin və partiyanın gənclərə göstərdiyi diqqətə təhsildə qazanacağı uğurlar və savadlı mütəxəssis olaraq vətənə layiqli xidmət edəcəkləri ilə cavab verəcəklərini söyləyiblər.

BOSŞELF MMC-nin insan resursları departamentinin rəisi Cavanşir Əliyev, YAP Qaradağ rayon təşkilatının Qadınlar Şurasının sədri Hicran Xəlilova, təşkilatın aparat rəhbəri Ramiz Yusubov, 274 saylı orta məktəbin direktoru Nəriman Mürsəliyev və başqaları gənclərə xoş arzularını çatdırıblar. Sonda gənclərə hədiyyələr təqdim olunub.

# EANA-nın "Koronavirus: dəyişikliklər və fürsətlər" mövzusunda payız konfransı keçirilir

***Sentyabrın 17-də Avropa Xəbər Agentlikləri Alyansının (EANA) "Koronavirus: dəyişikliklər və fürsətlər" mövzusuna həsr olunmuş payız konfransı başlayıb. Konfrans onlayn formatda keçirilir.***

AZƏRTAC xəbər verir ki, əvvəlcə konfransın Ukraynanın paytaxtı Kiyevdə keçirilməsi nəzərdə tutulsa da, EANA-nın idarə heyəti tədbiri pandemiya səbəbindən onlayn formatda təşkil etməyi qərara alıb.

Konfransda EANA-nın prezidenti, Almaniyanın DPA agentliyinin baş icraçı direktoru Piter Kropş, EANA-nın baş katibi Aleksandr Giboi, Böyük Britaniyanın Press Association Agentliyinin baş icraçı direktoru Klayv Marşal, AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov, Rusiyanın TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman, Albaniyanın ATA agentliyinin baş direktoru Armela Krasniqi, həmçinin Türkiyənin Anadolu, Fransanın France Press agentliklərinin nümayəndələri və digərləri iştirak ediblər.

Ukrinform-un baş direktoru Aleksandr Xarçenko tədbiri Kiyev şəhərindən maraqlı videotəqdimatla açıb. O, daha sonra koronavirusun yaratdığı



çağırışların medianı müsbət dəyişikliklərə sövq etdiyini bildirib və fikrini konkret nümunələrlə əsaslandırıb.

EANA-nın prezidenti Piter Kropş pandemiya dövründə doğru və keyfiyyətli xəbərə xüsusi ehtiyac yarandığını bildirərək, cəmiyyətlərdə informasiya agentliklərinə tələbatın artdığını vurğulayıb. Sonra konfrans iştirakçıları pandemiya şəraitində fəaliyyətin təşkili və xəbər istehsalı sahəsində təcrübələrini bölüşüblər. Konfrans işini növbəti həftələrdə davam etdirəcək.

Qeyd edək ki, Avropa Xəbər Agentlikləri Alyansı 1956-cı ildə Strasburqda təsis olunub. Dünya informasiya siyasətinə mühüm təsir imkanlarına malik bu media təşkilatı öz sıralarında Avropanın 32 aparıcı xəbər agentliyini birləşdirir. 2008-ci ildən EANA-nın üzvü olan AZƏRTAC təşkilatın fəaliyyətində yaxından iştirak edir.

# Paşinyan dövlət büdcəsini talayır

*Halbuki ictimaiyyət ciddi iqtisadi çağırışlar qarşısında dayanıb, ancaq dövlət bütün vətəndaşların problemlərinin həll edə bilmədiyini bəyan edir*



Ermənistanda Nikol Paşinyanın və ailəsinin dövlət büdcəsini öz şəxsi əmlakları kimi istifadə etmələri barədə yüzlərlə faktlar var. Belə faktlardan bir neçəsi erməni baş nazirinin arvadı Anna Akopyanın hətta ölkədaxili səfərlərini təyyarə və helikopterlərlə etməsi, eyni zamanda, övladlarının bahalı əyləncə mərkəzlərində istirahət etmələri, xarici səfərlərdə valyutaları sağa-sola xərcləmələri və s. məsələlərdir. Bu kimi faktlar demək olar ki, günaşırı olaraq erməni KİV-lərində işıqlandırılır, informasiyalar yayılır.

Ancaq bugünlərdə daha bir qıcıqlandırıcı fakt erməni ictimaiyyətinin kəskin hiddətinə səbəb olub. SİA xəbər verir ki, politik.am saytının yazdığına görə, Nikol Paşinyan irimiqyaslı xərcləri sərf etməkdə davam edir. Halbuki ictimaiyyət ciddi iqtisadi çağırışlar qarşısında dayanıb, ancaq dövlət bütün vətəndaşların problemlərinin həll edə bilmədiyini bəyan edir.

Hökumət başçısı üçün ayrılmış avialaynerin yeni görüntüsü üçün dövlət büdcəsindən 210 000 avro (250 000 ABŞ dolları) xərclənib

SİTAT: "News.am agentliyinin çıxardığı nəticəsinə görə, hökumət üçün ayrılmış avialaynerin yeni görüntüsü üçün dövlət büdcəsindən 210 000 avro (250 000 ABŞ dolları) xərclənib. Söhbət təyyarədə yalnız simvollardan: bayraqdan, gerbdən, qeydiyyat nişanlarından gedir. Hökumət laynerini avqust ayında çexlərin nternational Aerospace Coatings (IAC) şirkəti rəngləyib. Bu şirkət şəxsi və hökumət təyyarələrinə xidmət göstərmək üçün dünya üzrə fəaliyyət göstərən ən aparıcı şirkətdir".

Erməni KİV-i açıq sistem şəbəkəsi mənbələrindən sözügedən məsələni aydınlaşdırmağa və həqiqətənmi bu qədər böyük məbləğin hökumət təyyarəsinin rənglənməsinə xərclən-diyini öyrənməyə çalışıb. Mənbələrin qeyd etdiklərinə görə, 71 metr uzunluğunda olan Boeing 747 laynerinin rənglənməsi üçün 100-200 min dollar lazımdır.

Həmin iş maksimum 70 min dollara başa gələ bilərdi

Başqa tərəfdən, qiymət həm də avialaynerin dizaynından və seçilən rəngdən asılıdır. Əgər ən bahalı rəng seçilərsə və dizayn çətinlik yaradarsa bu zaman 200 min dollar kifayət edir. SİTAT: "Xatırladaq ki, Nikol Paşinyana xidmət edən Airbus A319 avialayneri 34 metr uzunluğundadır. Onun uzunluğu Boening 747-dən iki dəfə azdır ki, bu da təyyarənin rənglənməsində də iki dəfə az xərc tutur. Əgər onu da nəzərə alarsaq ki, baş nazirə xidmət edən təyyarəyə azxərcli dizayn qərarı tətbiq edilibsə, onda nəticəyə gəlmək olar ki, həmin iş maksimum 70 min dollara başa gələ bilərdi".

Erməni nəşri daha bir faktı ortaya çıxarıb ki, Rusiyanın Aeroflot şirkətinin dizaynı Paşinyanın təyyarəsinin dizaynına bənzəyir və rənglənmə də eynilik təşkil edir. Hansı ki, rusların təyyarəsi Paşinyanın təyyarəsindən 7 metr artıqdır və ona 2 800 000 rubl xərclənib - yəni 46 min dollar.

*Rövşən NURƏDDİNOĞLU*

# Ermənistan parlamentinin fəaliyyəti Şimali Koreya ilə əlaqələndirildi



Erməni KİV-i: "Paşinyan dəfələrlə parlamentin tribunasından çıxış edərək Respublika partiyasının digərlərinin fikirlərini öyrənmədən səs çoxluğu vasitəsi ilə istədikləri qanunları qəbul etdiklərini deyirdi"

"Yəqin ki, oxucular televizor, ya da internet vasitəsi ilə Şimali Koreyada səsverməinin necə keçirilməsini izləyə biliblər. Bir zamanlar Ermənistanda səsvermə prosesini Şimali Koreya ilə əlaqələndirərək, o zamankı hakim Respublika partiyasına qarşı alət kimi istifadə edirdilər. Hazırkı hakimiyyət əvvəllər müxalifətçi kimi çıxış edərək, iqtidar partiyasının səsvermədə öz xeyrinə qərarlar çıxardığını iddia edirdi". SİA xəbər verir ki, bu fikirlər ermənilərin "Politik" siyasi saytında yer alıb.

Sayt qeyd edir ki, o zaman müxalifətdə olan Paşinyan dəfələrlə parlamentin tribunasından çıxış edərək Respublika partiyasının digərlərinin fikirlərini öyrənmədən səs çoxluğu vasitəsi ilə istədikləri qanunları qəbul etdiklərini deyirdi. SİTAT: "Lakin bu gün "Mənim addımım" parlament fraksiyası təkbaşına Ermənistan respublikasının konstitusiya məhkəməsinə üç hakim seçdi. Xatırladaq ki, səsvermədə 88 deputat iştirak edib, yəni ancaq "Mənim addımım" bloku..."

"Lakin hakimiyyət dəyişikliyindən sonra "Vətəndaş sazişi"nin təmsilçiləri və bugünkü "Mənim addımım"ın alyansı elə yüksək kateqoriyalardan danışırdılar ki: partiyadaxili demokratiya, partiya prüalizmi və realizə mümkünlüyü, eləcə də daxili müxalifətin vacibliyi.

Lakin həyat sübut etdi ki, bugünkü hakimiyyətin fəaliyyəti hətta keçmiş hakimiyyət üçün "yenilik" hesab edilə bilər. Bir şəxsin timsalında yaranmış mərkəzçi partiya və siyasi komanda hakimiyyəti səsvermə prosesi zamanı hakim ailəyə yaxın insanlar tərəfindən nəzarətdə saxalanılır, təsadüfən heç bir "qiyam" əlamətlərinin yaranmasını göstərməmək üçün".

*Rövşən RƏSULOV*

# Jalə Əliyeva: "Ermənistanın cinayətkar əməllərinin qarşısı alınmalıdır"



"Yunan filosoflarından biri hələ uzun əsrlər öncə demişdir: "Allah bir insana cəza vermək istəyirsə, ilk əvvəl onun ağlını alır". Bəli, bu müdrik kəlamı xalqlara transfer etmiş olsaq, ilk ağla gələn, birinci və mütləq şəkildə məkrli və hiyləgər ermənilər olur. Üç əsrə (XIX əsrin əvvəllərindən bu yana) yaxındır bu ərazilərə, bizim coğrafiyaya, qədim türk torpaqlarına məqsədli şəkildə köçürülən, köçürüldükləri gündən də başımızın hər mənada bəlasına, fəlakətinə çevrilən murdar qonşularımız bu müdrik kəlamı öz əməlləri, öz "dəyərləri" ilə tam haqq edirlər... Çünki XIX əsrdən qonağı olduğu torpaqlarda, bizim torpaqlarda özlərini sanki həyasız, üzlü, çağırılmamış qonaq, hətta "ev sahibi" kimi aparır, bütün insani və bəşəri dəyərləri, beynəlxalq hüququn norma və qaydalarını açıq-aşkar şəkildə tapdalayırlar". SİA xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı, professor Jalə Əliyeva deyib.

Deputat bildirib ki, qədim türk-Azərbaycan ərazilərində havadarlarının təzyiqi ilə Ermənistan adlı qondarma dövlət qurmağa nail olan ermənilər son 32 ildə yenə də bizim ərazilər hesabına ikinci erməni dövləti yaratmağa cəhd edirlər və bunun üçün də törətmədikləri qanlı, cinayətkar əməllər, fitnəkarlıqlar, təxribatlar qalmayıb. Bütün insani hisslərdən və dəyərlərdən uzaq olmuş və bu gün də bu mənada daha uzağa gedən ermənilər, onların başabəla, rasist, nasist, terrorçu siyasətçiləri dünyada baş verən istənilən faciədən, göz yaşlarından, insanlıq dramlarından fürsəti əldən vermədən yararlanmağa çalışırlar. Bir neçə il öncə Azərbaycanın işğal olunmuş ərazilərinə Suriyada yaşayan erməniləri köçürməklə kifayətlənməyən erməni hakim dairələri indi də Livan ermənilərinin "pişvazı"na çıxıblar... Bir müddət öncə Livanda baş vermiş fəlakətdən sonra evsiz-eşiksiz qalmaları bəhanəsi ilə Livan ermənilərini Azərbaycanın işğal olunmuş ərazilərində məskunlaşdırmağa başlayıblar. Sanki bu torpaqlar onların dədə-babalarının torpağıdır, istədiklərinə "peşkəş" edə bilərlər... Bunun adı cinayətkarlıqdır, barbarlıqdır, erməni həyasızlığıdır, bunun adı erməni simasızlığı və murdarlığıdır...Özü də sanki əllərindən gələni edirlər və etməyə çalışırlar ki, lüğətdəki bütün mənfi sözləri, söyüşləri, təhqirləri eşitsinlər, özlərinə, canlarına hopdursunlar. Heç bir dəyər qalmayıb... Ancaq artıq buna "dur" deyilməlidir. Bu cinayətin, cinayətkarların, terrorçuların qarşısı alınmalı, cəzası verilməlidir. Özü də bu cəzanı Ermənistanı bu cinayətlərə həvəsləndirənlər özləri verməlidirlər. Dörd qətnaməsinin icrasını təmin etməyən BMT və onun Təhlükəsizlik Şurası, o cümlədən ATƏT və onun Minsk qrupu... Bu, ilk növbədə, onların vəzifəsi və borcudur. Biri 27 ildir 4 qətnamə qəbul edib, amma heç nəyə nail olmayıb, biri də 23 ildir guya vasitəçilik missiyası ilə məşğuldur, amma heç bir irəliləyiş baş verməyib. İndi zəhmət çəkib missiyalarını həyata keçirsinlər, qətnamələrinin icrasına nail olsunlar, ədaləti, sülhü, təhlükəsizliyi təmin etsinlər, Ermənistanı həm qanunsuz məskunlaşdırma siyasətindən, həm də təcavüzkarlıq hərəkətlərindən çəkindirsinlər. Yalnız bundan sonra onların ədalətinə inanmaq, missiyasına etibar etmək olar. Amma...təəssüf... Görünən odur ki, atalar məsəlində də deyildiyi kimi, taylı tayını tapar... Onlardan haqq, ədalət gözləməyinə dəyməz...Amma dediyim kimi, artıq işğala, işğalçı davranışlara "dur" deməyin əsl məqamı və zamanıdır. İnanırıq və qəti şəkildə əminik ki, belə də olacaq, Ali Baş Komandanın əmri və rəhbərliyi ilə Azərbaycan Ordusu Azərbaycan xalqı ilə birlikdə hər mənada öz sözünü deyəcək, Ermənistana, onun müxtəlif coğrafiyalardakı qanlı havadarlarına haqq etdikləri yeri tanıdacaq... O gün isə uzaqda deyil.

# "Past" qəzeti: "Paşinyan statistik göstəricilərlə manipulyasiya edir"



Son bir neçə gündə Nikol Paşinyan yenidən Facebook səhifəsində müxtəlif statistik məlumatlar yaymağa başlayıb və onları böyük bir uğur adlandırıb. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatlara istinadən xəbər verir ki, bu barədə "Past" qəzet yazır. Nəşr yazır ki, son paylaşımında Paşinyan keçi və qoyun ixracatında 256 % artım olduğunu qeyd edib. Dünən bəzi mütəxəssislər bu rəqəmlərin daha çox manipulyasiya olduğunu söyləyiblər.

Qeyd olunur ki, xüsusilə, bəzi iqtisadçılar yalnız 2019-cu ilin sonunda qəbul edilmiş müvafiq proqramın qısa bir müddətdə belə bir nəticə verə bilməyəcəyini qeyd edirlər. Digər tərəfdən, sferanın inkişafı ilə deyil, müəyyən mənada "tranzit" ilə məşğul olduğumuz barədə fikirlər var. İqtisadçılardan biri nəşrə verdiyi müsahibədə bu cür rəqəmləri dərc etməzdən əvvəl daxili tələbatı necə ödəməyin mümkün olduğunu, ətin qiymətinin necə olduğunu və s. araşdırmaq lazım olduğunu qeyd edib. Başqa bir iqtisadçı, qəzetin müxbirinə verdiyi müsahibədə, Paşinyanın, əsasən Statistika Komitəsinin məlumatlarının növbəti ümumiləşdirilməsindən və dərc edilməsindən əvvəl fəal şəkildə rəqəmlər yayımladığına diqqət çəkib. "Bəzən elə bir təəssürat yaranır ki, elə bil Statistika Komitəsinin məlumatlarını Paşinyan istifadə etmir, əksinə, Paşinyanın məlumatlarını Statistika Komitəsi yayımlayır", deyə iqtisadçı bildirib.

*İnam Hacıyev*

## Azərbaycan nefti bahalaşır

CIF bazisi üzrə İtaliyanın Auqusta limanı şərtləri ilə Azərbaycanın yüngül neftinin qiyməti sentyabrın 16-da 42,42 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 1,78 dollar/barel çoxdur. Bu barədə SİA-ya ölkənin neft-qaz bazarındakı mənbə bildirib.

FOB bazisi üzrə Türkiyənin Ceyhan limanında Azərbaycanın yüngül neftinin qiyməti 41,9 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 1,77 dollar/barel çoxdur. Novorossiysk limanından yüklənən URALS neftinin qiyməti isə 40,3 dollar/barel təşkil edib ki, bu da əvvəlki göstəricidən 1,78 dollar/barel çoxdur. Şimal dənizindən hasil edilən "Brent Dated" etalon növlü neftin qiyməti 40,92 dollar/barel olub ki, bu da əvvəlki göstəricidən 1,8 dollar/barel çoxdur.



# Livandan Qarabağa terrorçular köçürülür - bəs vasitəçilər niyə susur?

***Təxminən 200 il əvvəl olduğu kimi yenə Azərbaycan torpaqlarına ermənilər köçürülür. Azərbaycanın düşmənləri Cənubi Qafqazda yürüdülən müstəmləkəçilik siyasəti nəticəsində aborigen, yerli sakin olmayan, gəlmə ermənilərə dövlət yaratmaqla özlərinin yaratdıqları beynəlxalq hüququ tapdaladılar. Osmanlı dövlətinə qarşı birləşib onu parçalayandan sonra türk imperiyasının düşmənləri Orta Şərqdə, xüsusilə Livanda, Suriyada Türkiyəyə (sonradan Azərbaycana) qarşı müxtəlif təşkilatlar yaratdılar. Onların bəzilərini xatırlatmaq olar:***

- "Erməni gizli azadlıq ordusu" (ASOA) - 1975-ci ildə Livanın paytaxtı Beyrutda yaradılıb. Mənzil-qərargahı Suriya paytaxtı Dəməşqdə yerləşir. Fələstin bazalarında hazırlıq keçən mindən artıq döyüşçüsü vardır;
- "Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu" (ASALA) - 1975-ci ildə Beyrutda yaradılıb. Təlim-məşq bazaları isə Suriyada yerləşir.
- "Geqaron" - 2001-ci ilin fevralında ASALA tərəfindən yaradılıb;
- "Erməni azadlıq hərəkatı" (AOD) - 1991-ci ildə Fransada yaradılıb. Terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirir;
- "Erməni azadlıq cəbhəsi" - 1979-cu ildə yaradılan bu terror təşkilatı ASALA-nın tərkib hissəsi sayılır;
- "Erməni soyqırımı ədalət komandosları"nın məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etməkdir;
- "Erməni birliyi" 1988-ci ildə Moskvada yaradılıb. ASALA ilə sıx əlaqələri vardır, keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edir. Dağlıq Qarabağa silah və muzdluların ötürülməsində iştirak edir;
- "Apostol" - 2001-ci il aprelin 29-da əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılıb. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirməkdir.

Bu baxımdan, Azərbaycanın Qarabağ bölgəsinin işğalında Livan və Suriyadan olan ermənilərin, habelə ərəblərin də iştirak etdiyinə dair təsdiqlənən xəbərlər əsassız deyil. Başqa sözlə, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə Livan və Suriyadan ermənilərin, muzdluların köçürülməsi, yerləşdirilməsi və onların fəaliyyəti beynəlxalq güclərin xeyir-duası əsasında əvvəlcədən düşünülmüş, planlaşdırılmış aksiyadır.

Yeri gəlmişkən, 1992-ci il fevralın 26-da Xocalı soyqırımının törədilməsində həmin terrorçular da iştirak edib. Həmin dövrdə Levon Ter-Petrosyanın Ermənistanın prezidenti olması isə təsadüfi deyildi. Petrosyan 1945-ci il yanvarın 9-da Suriyanın Hələb şəhərində doğulub. Atası Akop Ter-Petrosyan Livan və Suriya kommunist partiyalarının yaradıcılarından biri olub.

Bu ilin avqustunda Beyrutda çoxsaylı insan itkisi ilə nəticələnən partlayışdan sonra Ermənistanda "humanizm" hissləri "baş qaldırdı". Livandan Ermənistana və işğal altında olan Dağlıq Qarabağa ermənilərin köçürülməsi məsələsi yenidən gündəliyə gətirildi. Ermənistanın diaspor üzrə ali komissarı Zare Sinanyan hadisədən sonra bildirdi ki, Ermənistan vətəndaşlığını qəbul etmiş 20 min livanlı ermənin ölkəyə dönmək istəyir. Rəsmi Yerevan bunu "repatriasiya" adlandırır. Qeyd edək ki, Suriyada müharibə başlayandan 15




min suriyalı erməni Ermənistana köçüb. Onların bir qismi Qarabağa, Laçın rayonuna yerləşdirilib. 2018-ci ildə 76 belə erməni ailəsi Azərbaycanın işğal altında olan bu rayonuna köçürülmüşdü. Bu ilin aprelində isə Zare Sinanyan parlamentin təhsil, mədəniyyət, diaspor, gənclər və idman məsələləri üzrə komissiyasının iclasında bildirmişdi ki, Ermənistan kütləvi repatriasiyaya (qayıdışa) hazır deyil: "Gəlin, düz danışaq. Əgər pandemiyaya görə repatriasiya baş versə, bizim bunu qarşılamağa hazırlığımız yoxdur. Əgər insanlar Ermənistana qayıtsa, biz onları saxlaya biləcəyik? Əsas məsələ budur". O qeyd etmişdi ki, repatriasiya istiqamətində iş aparmazdan əvvəl bir suala cavab vermək lazımdır: "Qayıdacaq insanları Ermənistan şərait və lazımi işlə təmin edə biləcək". Z.Sinanyan vurğulamışdı ki, 30 il ərzində 2-2,5 milyon insanı Ermənistana repatriasiya etmək hökumətin strategiyasına daxildir. Ümumiyyətlə, 30 ilə yaxındır Ermənistan əhalisinin sayı 3 milyona çatmır. Belə vəziyyətdə olan bir ölkədə iki ay ərzində nə baş verdi ki, Zare Sinanyan Livandan "repatriasiyadan" danışmağa başladı.

Yeri gəlmişkən, pandemiya ilə bağlı Rusiyadan geri göndərilən ermənilər federasiyaya qayıtmaq üçün günlərdir Ermənistan hökumətinin binası qarşısında aksiya keçirirlər. Onlar Ermənistanda yaşamağın və işləməyin mümkün olmadığını bildirirlər. Belə çıxır ki, Ermənistan hökuməti Livandan erməniləri Ermənistana və Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə yerləşdirməklə onların adına beynəlxalq donorlardan humanitar yardım almaq istəyir.

Bir müddət əvvəl Qarabağdakı erməni separatçıların başçısı "müqavilə əsasında ordu" "quracaqlarını bəyan etmişdi". O, bununla da işğal altında olan torpaqlarda muzdlulardan ibarət hərbi birləşmələrin yaranmasının anonsunu vermişdi. Bu baxımdan, Livandan Qarabağa bu niyyətlə muzdluların köçürüldüyü və köçürüləcəyi istisna edilmir. Çünki heç bir düşüncəli livanlı erməni, yaxud ərəb bir münaqişə bölgəsindən başqa birinə köçməyi özünə qıymaz.

Məsələyə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də münasibət bildirib: "Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasəti aparan Ermənistan son günlər xüsusilə Livandan olan ermənilərin bu torpaqlara köçürülməsi siyasətini həyata keçirir...

Azərbaycan da daxil olmaqla dünya ölkələri Livanda baş vermiş faciənin nəticələrinin aradan qaldırılması, Livana humanitar yardım göstərilməsi ilə məşğul olarkən Ermənistan bu faciədən, insanların iztirablarından özünün çirkin məqsədləri naminə sui-istifadə edir. Bununla da Ermənistan onun üçün heç bir mənəvi dəyərlərin olmadığını nümayiş etdirir...

Xüsusilə vurğulamaq istərdim ki, işğal olunmuş ərazilərimizdə məskunlaşdırılmış əhali faktiki olaraq Ermənistanın məsuliyyətsiz, avantürist siyasətinin qurbanına çevrilir...".

Dünyanın harasında yaşamasından asılı olmayaraq, ermənilik siyasi-ideoloji düşüncə sistemi bu etnik qrupun başının bəlası, etimad qazanması, ona hörmət edilməsi üçün problemdir. Bu ideya həm də erməniləri güclülərin əllərində oyuncağa çevirir.

Livandan, yaxud Suriyadan olan adi ermənilərin hər an müharibə ola biləcək Dağlıq Qarabağda nə işi var? Deməli, Ermənistan Azərbaycanın bu bölgəsinə ASALA kimi terrorçu təşkilatların silahlılarını yerləşdirməklə müharibəyə hazırlaşır. Çünki Ermənistan əhalisi işğalçı ordunun tərkibində Qarabağda xidmət etmək istəmir. Heç bir valideyn öz oğlunun başqasının torpağında ölməsi ilə razılaşmır. Belə şəraitdə livanlı, suriyalı muzdlular bölgəyə gətirilir. Bu terrorçuların isə bir müddət sonra "peşəkar ordu" kimi təqdim ediləcəyi də istisna edilmir.

Bir çoxları iddia edirlər ki, ASALA terror təşkilatı fəaliyyətini artıq dayandırıb. Ancaq onların üzvlərinin hələ də bu təşkilata bağlı olduqlarına dair xəbərlər yayılır. Bu günlərdə Ermənistan KİV-də ASALA-nın üzvü Abraam Tovmasyanın Livanda avtomobil qəzasında öldüyünə dair məlumat yayılmışdı. A.Tovmasyan təşkilata 1980-ci illərin əvvəllərində qoşulub. Avropada ASALA-nın terrorçu bazalarından birində təlim keçib. O, 1983-cü il yanvarın 22-də Parisdə "Turkish Airlines"ın ofisinə qrup şəklində hücumda iştirak edib. 1985-ci ildə Livana qayıdıb. Terrorçunun ölümü ilə bağlı Ermənistanda matəm mərasimi keçirilib.

Daha bir məsələyə diqqəti çəkmək istərdik. Ermənistanın baş naziri Nikol Paşinyan ötən il 2050-ci (!) il üçün hədəflərindən danışarkən erməni xalqını əməlli-başlı ələ salmışdı. O, 2050-ci ildə Ermənistanın futbol üzrə dünya çempionu (!!!) olacağını, Ermənistan əhalisinin sayını 5 milyona çatdıracaqlarını (son 6 ayda Ermənistanın daimi əhalisinin sayı 3,5 min nəfər azalıb - S.İ.) və başqa avantürist proqnozlar vermişdi. Belə hesab etmək olar ki, Ermənistan əhalisinin sayı da Livan və Suriyadan gətiriləcək terrorçuların sayəsində artacaq.

Bütün münaqişələrin həllinə ədalətli hakimlik etmək istəyən beynəlxalq vasitəçilər isə baş verənləri sükutla qarşılayır. Belə çıxır, onlar ermənilərin faciəvi tale yaşamasına şərait yaradırlar. Həmin vasitəçilərin perspektivdə onların bu vəziyyətindən təzyiq vasitəsi olaraq yararlanacağını da ehtimal etmək olar. Adətən, onlar böyüklərə qarşı döyüşməyəndə belə etnik qruplardan istifadə edirlər.

***Sədrəddin İsmayılov***

# Bizi aparan yollar:

## *Hara gedir, hansı vəziyyətdədir, nəyi dəyişir?*

***Azərbaycan inkişaf etmiş yol infrastrukturuna malikdir. Belə ki, ölkəmizdə respublika əhəmiyyətli yolların uzunluğu 5 min, yerli əhəmiyyətli yolların uzunluğu isə 15 min km-ə çatır, həm də bu yolların çox böyük hissəsi dünya standartlarına uyğun şəkildə yenidən qurulub. Son 15 il ərzində 15 min kilometrə yaxın yol təmir olunub və ya yeni salınıb. Davos Ümumdünya İqtisadi Forumunun hesabatına görə, Azərbaycan yollarının keyfiyyətinə görə dünyada 34-cü yerdədir. Təkcə Avropada 50-dən artıq ölkə olduğunu nəzərə alsaq, bu, çox yüksək nəticə sayılır.***

**Nəqliyyat Nazirliyi, "Azəravtoyol", BNA və DYP bu məsələyə ciddi nəzarət etməli, belə hallara səbəb olanlar ciddi cəzalandırılmalı, böyük məbləğdə cərimə edilməlidir**







### Respublika əhəmiyyətli yolların vəziyyəti necə dəyişib?

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2004-cü ildə verdiyi Sərəncamı bölgələrimizdə yol sistemini tamamilə dəyişib. İndi region əhalisi daha rahat, daha müasir, daha geniş yollarla istədiyi məntəqəyə tez və təhlükəsiz şəraitdə gedib gəlir. Əlbəttə, bu yolla təkcə sosial deyl, həm də böyük iqtisadi əhəmiyyətə malikdir.

2004-cü ildən bu yana ölkədə 11 min km yol təmir olunub və ya yeni tililib. Təkcə keçən il ümumi uzunluğu 1000 km-dən artıq olan 43 rayon üzrə rayon və qəsəbədaxili, kənd və qəsəbələrarası avtomobil yollarını əhatə edən 50 yol infrastrukturu layihəsi icra olunub.

Artıq Xınalıq kimi ən ucqar dağ kəndlərinə müasir yollar çəkilib, rayonlararası, kəndlərarası yollar təmir olunub ki, bu da region əhalisinin rahatlığını təmin edib. Bu isə öz növbəsində turizmin də inkişafına və turistlərin rahat hərəkətinə zəmin yaradır. Əvvəllər gedilməsi mümkün olmayan ucqar ərazilərə indi turistlər və sakinlər çox rahat və tez gedib-gələ bilirlər.

Kiçik şəhərlərimizin küçələrinin də çox böyük hissəsi təmir olunub, abadlaşdırılıb. Abşeron yarımadasında yerləşən qəsəbədaxili yolların təmiri isə 2023-cü ildə başa çatacaq. Digər regionlardakı qəsəbələrin də küçələri təmir edilir, abadlaşdırılır.

Ən əsası isə, ölkəmizin əsas nəqliyyat arteriyaları olan- Bakı-Gürcüstan sərhəddi, Bakı-İran sərhəddi, Bakı-Rusiya sərhəddi magistrallarının yenidən qurulması həm İpək yolu üzrə, həm Şimal-Cənub nəqliyyat dəhlizi üzrə sərnişin və yük daşımaları xeyli intensivləşdirib. Deməli, bu yollar həm sosial, həm də iqtisadi cəhətdən böyük fayda verir və verəcəkdir.

### Paytaxtımızın yolları ən yüksək standartlara cavab verir

Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2003-cü ildə verdiyi Sərəncamı paytaxtımızın mənzərəsini tamam dəyişib. Bakıda indi şüşə kimi hamar yollar, küçələr, prospektlər göz oxşayır. Həm də, təkcə paytaxtda yox, şəhərətrafı yollarda da.

Bakı Dairəvi yolunun salınması, həmçinin Aeroport-Zığ yolunun yaradılması bu sahədə çox böyük əhəmiyyətə malikdir. İndi paytaxtın istənilən ərazizindən digər yerinə daha tez, daha rahat gedib-gəlmək mümkündür. Nəticədə, nəqliyyatın hərəkəti 2 dəfə sürətlənib, tıxaclar aradan qalxıb, sərnişinlərin və yüklərin daşınması rahatlaşıb.

2020-ci il ərzində dövlət investisiya proqramı çərçivəsində Bakı şəhərinin 12 rayonu, həmçinin, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron yarımadası üzrə 330 km olan şəhər küçə və prospektləri, həmçinin qəsəbədaxili yollar və küçələr təmir olunacaq.

Sevindirici haldır ki, yenidənqurma işləri təkcə nəqliyyat yolları üçün deyil. Son illərdə Bakıda 100-dən artıq piyada keçidi tikilib, onlarla km uzunluqda səkilər yaradılıb ki, bu da, piyadaların rahat və təhlükəsiz hərəkətini təmin edib.

Bakıda bir çox prospekt və küçələrin genişləndirilməsi də vacibdir. Məsələn, Bayılda yeni hündürmərtəbəli binalar tikilsə də, orada bütün küçələr 2 zolaqlıdır ki, bu da tezliklə həmin ərazidə tıxacların kəskinləşəcəyini söyləməyə əsas verir. Digər bəzi yerlərdə də belə vəziyyətdir. Ona görə də, ekspertlər yeni binaların və yaşayış komplekslərinin sıx yerlərdə yox, şəhərin nisbətən boş və seyrək ərazilərində salınmasını məsləhət görürlər.

### Yollarımızı, küçələrimizi kim, necə və niyə dağıdır?

Görülən bu qədər işlərə, xərclənən bu qədər vəsaitə baxmayaraq bəzi yollarda problemlər yaranır ki, burada da əsas günah şirkətlərə, müəssisələrin, həmçinin, Azərsu, Azəriqaz kimi bəzi dövlət orqanlarının üzərinə düşür.

Belə ki, yollar və küçələr təmir olunandan sonra ənənəvi olaraq həmin orqanların və şirkətlərin yadına düşür ki, bəs yolun o tərəfinə boru çəkilməlidir və ya kanalizasiya işləri görülməlidir. Yolu bir neçə yerdən qazıb işlərini görürlər, sonra həmin qazılan hissəsi bərbad formada ört-basdır edərək aradan çıxırlar. Nəticədə, həmin yerdə çökəklik və qabarıqlar qarmoşka) qalır və avtomobillər ordan keçəndə atılıb düşərək zərər görür ki, bu da narazılıq yaradır. Tezliklə, yolun həmin yamaqlı hissələri sıradan çıxır və dövlət məcbur olur həmin yolu və ya küçəni yenidən təmir etsin.

Daha bir problem isə yük maşınları ilə bağlıdır. Belə ki, normadan 2 dəfə artıq yüklənmiş yük maşınları yolları və küçələri bərbad hala salır. Magistral yollarda sağ kənar zolaqların pis vəziyyətə düşməsinin əsas səbəblərindən biri də budur. Bu, xüsusilə də, Bakı-Rusiya sərhəddi magistral yolunda özünü daha qabarıq biruzə verir.

Özü də, təkcə magistral yollarda yox, şəhərdaxili yollarda da belədir. Məsələn, paytaxtın düz mərkəzinə daxil olan strateji əhəmiyyətli əsas yol - Yeni Salyan şossesi ilə axşamdan başlayaraq gecə səhərədək çoxsaylı ağırtonnajlı yük maşınları daxil olur ki, onlar da gecə sakinlər yatdığı vaxtda güclü səs-küy yaratmaqdan əlavə, həm də yolun dağılmasına səbəb olur. Nəticədə, dövlət milyonlarla manat zərərə düşür.

Bu ilin əvvəlində həmin yolun çökməsi və paytaxta girişin iflic olması da bu səbəbdən idi. Yolun sağı yamacdır və həmin zolaqla normadan artıq yüklənmiş yük maşınlarının fasiəsiz hərəkəti yolun həmin hissəsinin bu təzyiqə dözməməsinə gətirib çıxarır. Ona görə də, şəhərin mərkəzinə- Bibiheybət məscidindən Azneft istiqamətinə daxil olan yolda yük maşınlarının hərəkəti tam qadağan olunmalıdır.

Bundan başqa, bəzi yük maşınları yük hissəsini torpaq, qum və s tikinti materialları ilə maksimum yükləyir və yol boyu həmin material tökülə-tökülə gedir. Arxadan gələn figər maşınlar həmin torpağın üstündən keçəndən sonra onları qabarıq şəkildə bərkiyir, yolda dombalar əmələ gəlir və bərbad hala düşür.

Bu qeyd etdiyimiz hallar nəticəsində dövlətin böyük xərc və əziyyət bahasına başa gələn yollarımız dağılıb gedir. Ona görə də, Nəqliyyat Nazirliyi, Azəravtoyol və DYP bu məsələyə ciddi nəzarət etməli, belə hallara səbəb olanlar ciddi cəzalandırılmalı, böyük məbləğdə cərimə edilməlidir.

*Elçin Bayramlı*

## Əlillik üçün müraciət edən şəxsə üç halda imtina cavabı gəlir



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində olan Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi əlilliyin təyini üçün imtina cavabının hansı hallarda verildiyini açıqlayıb. SİA xəbər verir ki, Agentliyin İdarə Heyətinin sədr müavini Mətanət Məmmədova deyib ki, əlillik üçün müraciət edən şəxsə üç halda imtina cavabı verilir. "Göndərişdə qeyd edilən diaqnoz əilliyə uyğun olmadığı halda imtina cavabı verilir. Bəzən diaqnoz klinik müayinələrlə əsaslandırılmır, göndəriş səthi yazılır. Bu halda da imtina cavabı verilir. Üçüncü göndərişdə qeyd edilən müayinələr və müalicələrdən xəstəlik üzrə müalicə potensialının tam tükənmədiyi aydın olur. Bu halda da imtina cavabı verilir".

M.Məmmədova əlavə edib ki, imtina cavabı sənədlərin səthi doldurulması ilə bağlı olduqda yenidən müraciət etmək mümkündür. Agentik rəsmisi əlavə edib ki, əlilliyin təyini zamanı həm ambulator, həm də stasionar müalicə nəzərə alınır.



## Azərbaycanda vərəm xəstələrinin sayı azalıb

Azərbaycanda müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan vərəm xəstələrinin sayı azalıb. SİA xəbər verir ki, 2019-cu ildə Azərbaycanda müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan vərəm xəstələrinin sayı 8 257 nəfər olub. Bu say 2010-cu ildə 12 469, 2015-ci ildə 9 695, 2018-ci ildə 8 684 olub. Keçən il 3 613 nəfərə ilk dəfə vərəm xəstəliyi diaqnozu qoyulub. Ötən il vərəm diaqnozu qoyulanların 2 783 nəfərinə ağciyər vərəmi diaqnozu qoyulub.

2019-cu ildə vərəm diaqnozu qoyulanların 2 415 nəfəri kişi, 1 198 nəfəri qadındır. Vərəm diaqnozu qoyulanların çoxu - 1 178 nəfəri 18-29 yaşlı şəxslərdir. Ötən il vərəm diaqnozu qoyulanları arasında 142 nəfər 13 yaşadək olan uşaq da olub.

## Dünya iqtisadiyyatında koronavirus səbəbindən yaranan böhran 5 il çəkə bilər?




Dünya iqtisadiyyatının yeni növ koronavirus (COVID-19) pandemiyası səbəbindən yaranan böhrandan bərpası 5 il çəkə bilər. SİA xəbər verir ki, bunu Dünya Bankının baş iqtisadçısı Karmen Reynhart (Carmen Reinhart) deyib. "Karantinlə əlaqədar bütün məhdudlaşdırıcı tədbirlərin ləğvi fonunda olduqca sürətli bir sıçrayış olacaq, lakin tam bərpa 5 ilə qədər davam edəcək", - deyə iqtisadçı bildirib.

Eyni zamanda, K.Reynhart böhrandan sonra dünyada yoxsulluq səviyyəsi son 20 ildə ilk dəfə artacağını gözləyir. İqtisadçının fikrincə, pandemiyanın yaratdığı böhran dünyadakı bərabərsizliyi artıracaq: "Əhalinin ən kasıb təbəqəsi zəngin ölkələrdə böhrandan daha çox əziyyət çəkəcək, kasıb ölkələr isə zəngin ölkələrə nisbətən daha çox zərər görəcək". Qeyd edək ki, Dünya Bankı iyun ayında 2020-ci ildə dünya iqtisadiyyatını İkinci Dünya müharibəsindən bəri rekord səviyyədə azalacağını proqnozlaşdırıb - 5,2%. Halbuki hələ cari ilin yanvar ayında bank qlobal ÜDM-in 2,5% artacağını gözləyirdi.

## "Ermənistan tərəfinin öz itkilərini gizlətməkdə əsas məqsədi....."

"Ermənistanın işğal olunmuş ərazilərimizdə qeyri-qanuni məskunlaşdırma siyasəti aparmasında əsas məqsəd Ermənistana, eyni zamanda Dağlıq Qarabağ ərazisinə gətirilən terror təşkilatlarının nümayəndələrinin leqallaşdırılmasıdır". Bunu SİA-ya millət vəkili Arzu Nağıyev deyib.

"Burada heç də adi vətəndaşlardan söhbət getmir. Düzdür, bu proseslər miqrasiya məsələlərinə də təsir edən amildir. Lakin əsas məsələ Liviyada, Livanda, istərsə də Suriyada yaşayan guya erməni icmalarıdır. Onların gətirilməsi, daşınması və sonradan həmin o terror təşkilatlarının leqallaşdırılmasıdır. Bu, birinci dəfə deyil. Hətta Türkiyənin PKK-ya qarşı aparılan əməliyyatlarından sonra da belə bir proses davam edirdi. Həmçinin, Tovuz hadisələrində də Ermənistan tərəfinin öz itkilərini gizlətməkdə əsas məqsədi ondan ibarət idi ki, onların kimliyi məlum olmasın. Yəni orada da muzdlu dəstələrlə bərabər, eyni zamanda, xaricdən gətirilmə terror təşkilatlarının üzvləri var idi. Burada birmənalı şəkildə məram və məqsəd həmin muzdluların adi vətəndaş adı altında leqallaşdırılmasıdır"-deyə, A.Nağıyev fikrini tamamlayıb.

# Bu il Azərbaycana gələn əcnəbilərin sayı 3,3 dəfə azalıb



Koronavirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməmiş, mart ayından başlayaraq bu sahədə ciddi tənəzzülə səbəb olmuşdur. SİA xəbər verir ki, Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2020-ci ilin yanvar-avqust aylarında Azərbaycana dünyanın 155 ölkəsindən 649,7 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,3 dəfə az əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə Azərbaycan Respublikası ilə qonşu dövlətlər arasında dövlət sərhədində məhdudlaşdırıcı rejimin, eləcə də dünyanın əksər ölkələrində vətəndaşların səfərlərinə müvəqqəti məhdudiyyətlərin tətbiq olunması cari ilin aprel-avqust aylarında ölkəmizə gələnlərin sayında kəskin azalmaya səbəb olmuş və baş tutmuş səfərlər əsas etibarilə qeyri-turizm məqsədilə ilə həyata keçirilmişdir.

Bu dövrdə ölkəmizə gələnlərin 28,6 faizi Rusiya Federasiyası, 25,6 faizi Gürcüstan, 17,0 faizi Türkiyə, 7,8 faizi İran, 2,1 faizi Ukrayna, 1,9 faizi Hindistan, 1,8 faizi Səudiyyə Ərəbistanı, hər birindən 1,2 faiz olmaqla Pakistan, Birləşmiş Ərəb Əmirlikləri və Qazaxıstan, hər birindən 1,1 faiz olmaqla Küveyt və Türkmənistan, 0,9 faizi Böyük Britaniya, 0,8 faizi İraq, hər birindən 0,7 faiz olmaqla Özbəkistan və Belarus, 0,6 faizi İsrail, 5,6 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 77,9 faizini kişilər, 22,1 faizini qadınlar təşkil etmişdir.

# “Bu gün Azərbaycanda təhsilin əlçatanlığı tam təmin edilib”



“Gənc nəslin təlim-tərbiyəsi Azərbaycanın dövlət siyasətinin ana xəttini təşkil edir və keyfiyyətli təhsil ölkəmizin inkişafının əsas göstəricilərindən hesab edilir. Prezident İlham Əliyevin bu sahəyə xüsusi diqqəti və Birinci xanım Mehriban Əliyevanın hərtərəfli qayğısı nəticəsində Azərbaycan təhsili yeni inkişaf dövrünə qədəm qoyub”. Bunu SİA-ya millət vəkili Sevil Mikayılova deyib.

Deputatın sözlərinə görə, bu gün Azərbaycanda təhsilin əlçatanlığı tam təmin edilib və BMT qiymətləndirməsinə əsasən, ölkəmiz savadlılıq səviyyəsinə görə ən yüksək pillədə dayanır: “Təhsil sisteminin müasir standartlara uyğunlaşdırılması və təhsildə mövcud yeniliklərin tətbiqi gənclərin hərtərəfli bilik və bacarıqların qazanmasını təmin edir. Təhsil müəssisələrinin fəaliyyətini qabaqcıl standartlar əsasında qurması xüsusi önəm daşıyır. Bu mənada son illər ərzində ölkə ərazisində yeni məktəbəqədər təhsil müəssisələrinin, baxçaların və uşaq evlərinin bərpası və inşasını qeyd etmək lazımdır.

Xüsusilə qeyd edilməlidir ki, Azərbaycan dövlət büdcəsində təhsilə ayrılan vəsait ümumi büdcə xərcləri arasında ikinci yerdədir. Azərbaycan təhsilində ən uğurlu nəticələrdən biri də məktəb tikintisinin geniş vüsət almasıdır. Son 17 ildə ölkədə 3700-ə qədər məktəb tikilib və əsaslı təmir olunub. Bundan əlavə, universitet binalarının yenilənməsi, təmiri və bərpası da böyük sürətlə və geniş miqyasda həyata keçirilib. Bu il ölkə üzrə 147 məktəbin tikintisi nəzərdə tutulur. Onların böyük hissəsi Bilik Gününə hazır vəziyyətə gətirilib.

Heydər Əliyev Fondu bütün ölkədə böyük rəğbətlə qarşılanan “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı, “İnternat məktəblərinin inkişaf proqramı”, “Təhsilə dəstək”, ümumiyyətlə dövlət maraqları baxımından müstəsna əhəmiyyətə malik bir sıra layihələri uğurla gerçəkləşdirib. “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi həyata keçiriləndən sonra hətta respublikamızın ən ucqar regionlarında da hər cür ləvazimatla təchiz olunmuş, müasir tələblərə cavab verən məktəblər tikilib istifadəyə verilib. Təkcə bu tədris ilində Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə ölkəmizdə, o cümlədən Bakı, Gəncə və Mingəçevir şəhərlərində, eləcə də müxtəlif rayonlarda 62 təhsil müəssisəsi inşa və əsaslı təmir olunaraq müəllim və şagirdlərin ixtiyarına verilib. Azərbaycan cəmiyyətində təlim-tərbiyə və təhsil məsələsinə hər zaman xüsusi həssaslıq göstərilir.

Sosial həyatımızın və gələcəyimizin mühüm komponenti olan təhsil sisteminin yeniliklərə hər zaman açıq olması dövlət prioritetlərindən biridir və Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdırılacaq “Ağıllı məktəb” layihəsi və təhsil proqramları bu mənada növbəti möhtəşəm addım olacaq. Yeni ağıllı texnologiyaların tətbiq olunması heç şübhəsiz təhsil sisteminin müasirləşdirilməsi və keyfiyyətcə yeni beynəlxalq səviyyəyə qaldırılmasını təmin edəcək”.

*Ceyhun Rasimoğlu*

# İran-Azərbaycan sərhədində atışma olub, ölən var



Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir. DSX-nin Mətbuat Mərkəzindən Səs TV-yə bildirilib ki, 2020-ci ilin 17 sentyabr tarixində külli miqdarda narkotik vasitənin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb.

DSX-nin Sərhəd Qoşunnlarının “Horadiz” sərhəd dəstəsinin Beyləqan rayonunun 2-ci Şahsevən kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində 2 nəfər naməlum şəxsin İran İslam Respubnlikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərnhədini pozması sərhəd naryadı tərəfinndən aşkar olunub. Sərhəd pozucularının əllərində silah və yüklərin olması müşahidə edilib.

Sərhəd zastavası “Silaha” komandası üzrə qaldırılmış, xidməti ərazi qapadılıb. Sərhəd naryadı tərəfindən “Dayan” əmri verilərək havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucuları əmrə tabe olmayıb, sərhəd naryadına qarşı silah tətbiq etməklə geri qaçmağa cəhd ediblər.

Sərhəd naryadı tərəfindən “Azərbaycan Respublikasının dövlət sərhədi haqqında” Azərbaycan Respublikası Qanunun tələblərinə uyğun olaraq silah tətbiq olunub, sərhəd pozucularından biri aldığı güllə yarasından hadisə yerində ölüb. Digər sərhəd pozucusu ərazinin mürəkkəb relyefli olmansından istifadə edərək geri qaçıb.

Dövlət sərhədinin pozulması cəhdinin qarşısının alındığı əraziyə baxış zamanı 1 ədəd tüfəng, 2 ədəd çantada təxmini çəkisi 15 kq olan narkotikə bənzər maddə aşkar edilib.

Sərhəd pozucuları ilə görüşərək onlardan yükü təhvil almağa gəlmiş və sərhəd zastavasının mühəndis-texniki çəpərindəki məftilləri qıraraq sərhədnboyu zolağa daxil olmuş Azərbaycan Respublikasının vətəndaşı, Beyləqan rayon sakini 1975-ci il təvəllüdlü Məmmədov Adiş Cavad oğlu saxlanılıb, üzərində sərhəd pozucularına vermək üçün gətirdiyi 10 ədəd şüşə qabda alkoqol içkiləri aşkar olunub. Hadisə barədə İran sərhəd nümayəndəliyi məlumatlandırılıb.

# “Korrrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə heç kimə güzəşt olunmur”



***“Sirr deyil ki, bu gün Azərbaycanda korrupsiyaya qarşı mübarizə dövlət siyasətinin prioritetini təşkil edir. Bu baxımdan korrupsiya və rüşvətxorluq hallarına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi diqqət mərkəzində saxlanılır.***

Doğrudur, hazırda korrupsiya və rüşvətxorluqdan tam azad olan ölkə yoxdur. Lakin Azərbaycanda mövcud güclü siyasi iradə və qətiyyət səmiyyətimizin bu bəladan xilası üçün mühüm zəmin yaradır. Bu mənada etiraf edilməlidir ki, son illər Azərbaycanda bu sahədə daha ciddi tədbirlər həyata keçirilir, sərt qərarlar qəbul edilir”. Bunu SİA-ya Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Sədaqət Vəliyeva bildirib ki, Prezident İlham Əliyev keçirilən bütün tədbirlərdə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə daha sərt tədbirlərin görüləcəyini bəyan edir, bundan sonra da bu sahədə ciddi mübarizə aparılacağını bildirir: “Son zamanlar ərzində təyin olunan icra başçılarını qəbul edərkən cənab Prezident İlham Əliyevin ən çox vurğuladığı məsələ korrupsiya, rüşvətxorluq, məmur özbaşınalığı ilə mübarizə olub. Ölkə başçısı qətiyyətlə bildirir ki, bu xoşagəlməz hallara son qoyulmalıdır”.

“Ümumiyyətlə, son 16 ildə korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə sahəsində bir çox zəruri tədbirlər həyata keçirilib, qanunvericilik bazası gücləndirilib” - deyən Sədaqət Vəliyeva əlavə edib ki, Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq standartlara cavab verən institusional, qanunvericilik və inzibati tədbirlər həyata keçirilir. Hətta, ölkəmizdə korrupsiyaya və rüşvətxorluğa qarşı son illər daha kəskin mübarizə aparılması beynəlxalq təşkilatlar tərəfindən də etiraf olunur: “Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədə heç kimə güzəşt olunmayacaq. Son bir il ərzində müxtəlif vəzifəli məmurların həbs edilməsi də deyilənlərin əyani sübutudur. Çünki bəzi dövlət məmurları vəzifələrindən sui-istifadə edir, korrupsiya və rüşvətxorluq kimi çirkin əməllərdən əl çəkmir, müxtəlif peşə sahiblərinə, xüsusilə də, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara qarşı ədalətsizlik edir, onların normal fəaliyyətinə mane olurlar. Beləleri tutduğu vəzifədən asılı olmayaraq, qanun qarşısında cavab verməli olurlar”.

Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, korrupsiya və rüşvətxorluğun sərhədlərini daraltmaq üçün profilaktik tədbirlər, maarifləndirmə, elektron xidmətlər daha geniş şəkildə tətbiq olunmaqdadır. Reallıq da ondan ibarətdir ki, korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha da kəskinləşib və bu işdə vəzifəsindən asılı olmayaraq, heç kimə güzəşt edilmir.

# ÜST AÇIQLADI: Doqquz COVID-19 peyvəndi üçüncü mərhələdə klinik sınaqdadır

Koronavirusla bağlı klinik sınaqlarda 30 namizəd peyvənd var və bunlardan 9-u üçüncü mərhələdə klinik sınaqdadır. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəliyi məlumat verib. Nümayəndəlikdən deyilib ki, bir peyvəndin təhlükəsiz və effektiv olub-olmadığını aşkar etməzdən öncə üçüncü mərhələdəki sınaqlardan əldə edilən məlumatlara ehtiyac var:

“Bəzi namizəd peyvəndlərdən bu məlumatların 2020-ci ilin sonunda və ya növbəti ilin əvvəlində əldə ediləcəyini gözləyirik. Düşünürük ki, nə qədər çox namizəd peyvənd olarsa, müvəffəqiyyət üçün bir o qədər çox imkan yaranar. Peyvənd üzərində iş gözləniləndən də sürətlə davam edir. 11 yanvar tarixində çinli tədqiqatçılar virusun genetik ardıcıllığını açıqlayandan sonra peyvənd üzərində iş başlayıb. ÜST yanvar ayından etibarən bu tədqiqatlara cəlb olunub. Klinik sınaqlar hazırda sınaqdan keçirilən peyvəndlərin təhlükəsiz və effektiv olduğunu göstərərsə, peyvəndlərin 2021-ci ilin ortalarında ölkələrə çatdırılacağını gözləyirik”.



# İnternet oyunlarında və xəbər portallarında dilimizin saflığı problemləri

**(1-ci yazı)**

Xəbər verdiyimiz kimi, "Azadlıq Hərakatçıları" İctimai Birliyi Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə "İnformasiya texnologiyalarından istifadədə Azərbaycan dilinin saflığının qorunması:araşdırma, təhlil və təkliflərin hazırlanması" layihəsini həyata keçirir. Əvvəlki yazılarımızda verdiyimiz vədə əməl edərək layihənin araşdırma mərhələsi başa çatdığına görə monitorinqin nəticələri ilə bağlı ictimaiyyətə bəzi məlumatları çatdırmağı faydalı hesab edirik.

Aparılan arasdırmalar zamanı işçi qrupunu ən çox narahat edən söz oyunlarının tərtib edilməsində buraxılan saysız-hesabsız qüsurlar oldu. Krassvord və ya çaynvord üslubunda hazırlnmış bu söz oyunlarını tərtib edənlərin Azərbaycan dilini təmiz bilmədikləri aşkar görünür. İlk baxışda adi oyun təsiri bağışlasa da, xüsusilə gənclərin bu oyunlara marağını nəzərə alsaq demək olar ki, belə oyunlar nitqin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Lakin müşahidələrimiz qətiyyətlə belə bir nəticə çıxarmağa əsas verir ki, həmin oyunları hazırlayanlar bilərəkdən ya bilməyərəkdən yeni nəsildə dilin inkişafına ciddi zərbə vururlar. Araşdırma nəticəsində (com.füqo.wo və 50_com.miui.vide portallarında) aşkar olunan qüsurları üç qrupa bölmək olar. Birinci qrup dilimizin lüğət tərkibinə daxil olmayan əcnəbi sözlərdən gen-bol istifadə olunması ilə bağlıdır: marinad, tetra, taburet, krovat, avtor, luk, dust, hala, hana, çevron, şustrıy, manto, bay, privet, hello, period, avtişnik, razmer, kliyent, nan. pkroşka, namə, rezyume, vozniak, iphone, orqanik, notredame, araxis, proqramist, avtişnik, lastik, botinka ,trio, triko ,mior, avtor, rolik,lektor, tras,s ekta, masal, xamuşan, terma, florist, sort, ispanka, manto, poni, baptist ,motor, özləmək, aktiv, sənə, kavaler, akvarel, halə, maq, azim, rolik, turistik, septik, avtor, adres, etap, office, şapka, prokat, avtokar, netto, septik, idiom, solyaçka, zontik, kompani, şortik, septik, kapot, kitel, omlet, sort, mazi,



sport, kiosk, pastor, fizikçi, dublyor, dubl, pipetka, çalı, oylama, karmin, mikron və s...

İkinci qrupa dilin qrammatik qaydalarının pozulması ilə müşahidə edilən sözlər daxildir: Sehir, tumbul, ikindi, süt, kil, təəcüb, devlet, katar, protorip, spirit, dənizatı, zati, tabu, dayna, timsal, atil, xallanma, xallama, alçı, çalançı, donatma, meyil, meyili, xovlamaq, gözəmək, təlif, həmi, təmim, qatran, intiha, dust, biqafil, müyəssər, hana, piltə, vokaliz, səndəl, sığnaq, omar, yasli, vəlid, serin, azvlə, dəxil, dəjişmək, turna və s... Nəhayət, üçüncü qrup o sözlərdir ki, nə Azərbaycan dilində, nə də hər hansı əcnəbi dildə mövcud deyil. Sadəcə qrafanı doldurmaq üçün qeyri-adi sözlər yaranır.

Nümunələr: Xara, qaramat, part, past, kanoe, toqquş, tutam, mulat, klerk, manilik, akril. Oval, gərmək, fəs, künyə, danq, yak, boa, nacaqlı, kormofit, xırlama, yerləmə, dəmsaz, kömbələn, aşi, sirat, əkələnmə, qutan, misləmə, simləmə, potaşlı, hamil, özgün, taban, sumaxer, stendar, tərik, məs, baraj, bor, oval, masqura, tutam, mulat, xara, xart, dambra, ulan, ququş yard, ishal, erasa, deist, kardashian, ham, part, sırma, modallıq, plaskiask, qranj, şanson,ardıc, triller, sitka, yard, ipad, ima, astroit, anaqram, razl, ağlay, yerləmə, tevez, minni, makara, üzvlənmə, stan, lalama, siqma, roulinq, ron, yard, fəs, muza, mani, kis, last, maqma, karp və s. informasiya texnologiyalarında saytların tərtibi zamanı dizayn görüntülərində dilimizin qrammatik qaydalarına əməl edilib-edilməməsi də araşdırma zamanı diqqət mərkəzində oldu. Sevindirici haldır ki, həm dövlət qurumlarının, həm də özəl sektorun hazırladıqları saytlarda, əvvəlki illərə nisbətən ciddi irəliləyişin şahidi olduq. Belə ki, çox az sayda portalın tərtibində dil qüsurları aşkar edildi. Məsələn, change.org saytında olduğu kimi.

Adın özü anlaşılmaz əcnəbi söz olduğu yetməz kimi, titul səhifəsində "What's happening on Change.org", "Fikrət Hacıyev signed this petition", "Pərvin Cobanov signed this petition", "Benovshe Maliyeva signed this petiton" kimi əcnəbi sözlər yer alıb. Digər diqqəti cəlb edən bir nümunə. Həm "Azərsel", həm "Azərtelekom", həm də digər "Azər" sözü ilə başlayan və ya bitən adlarda, öz saytlarında və eynilə də bu ada müraciət edən bütün digər internet resurslarında, reklam bloklarında "azersell", "azertelekom" və s. kimi yazılması başa düşülən deyil. Türk əlifbasında "ə" saitinin hərfi işarəsi olmadığından bu səs də "e" hərfi ilə işarələnir. Ancaq Azərbaycan dilində "ə" saitinin hərfi işarəsi olduğu halda nədən "e" yazılır? Ümumiyyətlə, ayrı-ayrı saytlarda, xüsusən müxtəlif məzmunlu reklam bloklarında qarşılaşdığımız qüsurlar, reklam hazırlayan və onu internet portallarında yerləşdirənlərin cox zaman dilimizin saflığına məsuliyyətsiz yanaşdıqlarını göstərir. Reklam bloklarında əcnəbi sözlərdən yersiz istifadədən tutmuş fonetik, leksik və qrammatik normaların pozulmasına qədər saysız-hesabsız qüsurlara yol verilir:

Daha bir neçə nümunəyə diqqət yetirək: "IDEAL perfumery &cosmetics - YENİ DOLĞUN RƏNGLƏRLƏ DƏBDƏ OLUN!" "Bank of Baku - İnternet bankçılıq pulsuz." "Azər Türk Bank - Premium xidmətlər toplusu sizi..." "(Schwarzkopf) Şvarskopt - peşəkar keyfiyyət saçlarınız üçün." "Nova siti yaşayış kompleksindən qızmar qiymətlər kompaniyası." "Miselyar su - çirklənməni maqnit kimi özünə çəkir, makiyajı əlavə sürtünməsiz silir, qidalandırır, qayğısını çəkir." "Aza inanmıram! O məni uğur kişisi, müasir kişi edir." "Persen Forte - stressdən üstün olun." "Badam yağı üzümüzdə yaranan qırışıqları ömrü boyu məhv edir." "Yevroluks - illər sürən güvən." " İndi düzgün paltar seçməyə anında bəyaz təbəssüm əldə etməkdən daha çox vaxt sərf edəcəksiniz." "Qarnier müdafiə S-kompleksli mübarizəni aparan antiperspirant." "Hər növ plyonka" (əcnəbi dil vahidindən istifadə). "Oriental dance" (əcnəbi dildə və əcnəbi qrafika ilə verilmişdir) "Bakines plate hotel" (əcnəbi dildə və əcnəbi qrafika ilə verilmişdir) "İdeal - 777 massaj center/" (əcnəbi dildə və əcnəbi qrafika ilə verilmişdir "Pokrovskie dveri" (əcnəbi dildə və əcnəbi qrafika ilə verilmişdir) "Ustanovka, xhein" (əcnəbi dildə və əcnəbi qrafika ilə verilmişdir) "SONY Arzuların kamili" (leksikqrammatik norma pozulmuşdur) "Be`set heal team" (əcnəbi dildə və əcnəbi qrafika ilə verilmişdir) "Luxure Life" (əcnəbi dildə və əcnəbi qrafika ilə verilmişdir) "Beer hause" (əcnəbi dildə və əcnəbi qrafika ilə verilmişdir) " Luxry kids" furniture (əcnəbi dildə və əcnəbi qrafika ilə verilmişdir) "Walorosa men`s wear" (əcnəbi dildə və əcnəbi qrafika ilə verilmişdir).

***Təhmasib Novruzov.***
***"Azadlıq Hərakatçıları"***
***İctimai Birliyinin sədri***

## "Azərbaycan özünü yerli istehsal məhsulları ilə təmin etməlidir"



"Sumqayıt Kimya Sənaye Parkında məhsul istehsalı və ixrac istiqamətində müsbət dinamika mövcuddur. Ümumilikdə 2019-cu ildə Sumqayıt Kimya Sənaye Parkında 823 milyon manatlıq məhsul istehsal edilib ki, bunun da 276 milyon manatı - təqribən 33 faizi ixrac olunub. 2020-ci ilin ilk 6 ayı ərzində 534 milyon manatlıq məhsul istehsalı ilə Sumqayıt Kimya Sənaye Parkının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 9,3 faiz, 182 milyon manatlıq ixracla ölkə üzrə qeyri-neft sənaye məhsullarının ixracında xüsusi çəkisi 20 faiz təşkil edib. Hazırda Parkda fəaliyyət göstərən müessisələrdə 5500-dən çox insan daimi işlə təmin olunub". Bunu SİA-ya millət vəkili Eldəniz Səlimov deyib.

E.Səlimov bildirib ki, Sumqayıt bu gün nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Sumqayıtın potensialı daha da güclənir. Bu il burada şüşə istehsalı zavodu da fəaliyyətə başlayacaq. Oraya da böyük investisiyalar qoyulub və daxili tələbatımızı təmin edəcəkdir. Baxmayaraq ki, indi tikinti sektoru pandemiyaya görə bir qədər tənəzzülə uğrayıb, amma o, bərpa edilir və ediləcək. Biz özümüzü yerli şüşələrlə təmin edəcəyik. Bu da böyük nailiyyətdir. Azərbaycan özünü yerli istehsal məhsulları ilə təmin etməlidir. Daxili tələbatı nə qədər mümkünsə, yerli məhsullar hesabına təmin edilməlidir. Burada Sumqayıt şəhərinin və xüsusilə Kimya Sənaye Parkının mühüm rolu var. Çünki son illərdə bu işləri görməklə buna böyük dərəcədə müvəffəq olmuşuq. İndi əsas işimiz ondan ibarətdir ki, baxmalıyıq, harada bizdə idxaldan asılılıq daha böyükdür və bunu əvəzləmək mümkündürsə, bunun üçün xammal varsa, yaxud da texniki-iqtisadi əsaslandırma buna imkan verirsə, mütləq həmin sahələrə böyük diqqət göstərilməlidir.

"Sumqayıt Kimya Sənaye Parkının ümumi inkişaf tendensiyası yeniliklərə münasibətilə fərqlənir. Elə nəzdində açılışı olan Peşə Təhsil Mərkəzini də bu xüsusda fərqləndirmək olar. Çünki ilk dəfədir ki, ölkədəki sənaye parkı ərazisində peşə təhsili müəssisəsi yaradılır, bununla da bir neçə strateji hədəfə nail olunur: tələbələrə müasir infrastruktura malik mərkəzdə dövrün tələbinə uyğun bacarıqlar və peşə vərdişləri aşılanacaq. Təlim-tədris prosesində iştirak edəcək mütəxəssislər elə parkın rezidentlərinin yüksəkixtisaslı işçilərindən olacaq. Öz növbəsində tələbələr də Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində təcrübə keçməklə, iş yeri əldə etmək imkanı qazanacaqlar"-deyə, deputat qeyd edib.

## "Məmurların, yüksək vəzifəli şəxslərin korrupsiyaya bulaşması dövlətin çökməsinə səbəb olur"



"Azərbaycanda korrupsiyaya qarşı mübarizə Prezident İlham Əliyevin ən çox önəm verdiyi məsələlərdən biridir. Çünki dövlət başçısı bunu öz çıxışlarında da qeyd edir və fəaliyyətində də göstərir ki, korrupsiya bir dövləti içəridən dağıdan ən təhlükəli təzahürlərdən biridir. Özəlliklə də məmurların, yüksək vəzifəli şəxslərin korrupsiyaya bulaşması dövlətin çökməsinə səbəb olur. Ona görə də Prezident İlham Əliyev korrupsiyaya qarşı davamlı, fasiləsiz və tərəddüdsüz mübarizə aparır. Təbiidir ki, bu mübarizədə korrupsiyaya qarşı mübarizə üçün qurulmuş dövlət strukturunun da ayrıca rolu var". Bunu SİA-ya siyasi şərhçi Azər Həsrət deyib.

Onun sözlərinə görə, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının yeni tərkibdə ilk iclasında da bu məsələnin bir daha aktuallaşdırılması, eyni zamanda yeni tərkibdə komissiyanın formalaşdırılması mübarizənin növbəti mərhələsindən xəbər verir: "Biz hamımız görmüşük və şahidi olmuşuq ki, Prezident İlham Əliyev məhz özünün təyin etdiyi kadrların korrupsiyaya bulaşmasına dözümsüz yanaşır. Biz ayrı-ayrı icra başçılarının, məmurların həbsi ilə bağlı görüntüləri hamımız izləmişik. Burada heç kimin gözünün yaşına baxılmır və heç kimə güzəştə gedilmir. Hətta dövlət başçısına guya sədaqəti ilə fərqlənən adamlar belə korrupsiyaya bulaşdığı anda onlara qanun çərçivəsində ən sərt tədbirlər görülür. O baxımdan düşünürəm ki, indi komissiyanın yenidən formalaşdırılması və fəaliyyətinin daha da genişləndirilməsi əlbəttə ki, bu bəlanın kökünün birdəfəlik kəsilməsinə hesablanıb. Yəni Prezident İlham Əliyev bu məsələdə heç kimə güzəşt etməyib və bundan sonra da etməyəcək. Bizim isə vətəndaş olaraq mövqeyimiz həmişə bundan ibarət olub ki, ölkə başçısının bu cür mübarizəsində mütləq onun yanında olaq və ona dəstək verək".

***Ceyhun Rasimoğlu***

### Tahir Kərimli: "İnsan haqlarının qorunmasında ictimai nəzarət orqanlarının rolu böyük ola bilər"



"İnsan haqlarının qorunmasında ictimai nəzarət orqanlarının rolu böyük ola bilər". SİA xəbər verir ki, bunu İnsan hüquqları komitəsinin bu gün keçirilən iclasında deputat Tahir Kərimli deyib. O təklif edib ki, ictimai nəzarətin qanunvericilik bazası yaradılsın: "Bu, ən azından qarşıya qoyulan məqsədləri yerinə yetirməkdə faydalı ola bilər. Eyni zamanda korrupsiya və rüşvətxorluğa qarşı mübarizədə, məmur özbaşınalığı sahəsində vətəndaşların müraciət edəcəyi qurum ola bilər. Bir çox ölkədə bu cür təşkilatlar var. Bununla bağlı qanunun hazırlanmasına da fikir verməliyik. Bu sahədə yeni yaradılacaq qanun və mövcud qanunlar əsasında vətəndaşlar bu işdə iştirak edə biləcəklər. İctimai Nəzarət Şurası da müstəqil olmalıdır".

Komitə sədri Zahid Oruc bildirib ki, qanunvericilik təşəbbüsündə balans yaranmalı və parlamentdən olan təşəbbüslərin sayı artmalıdır: "Parlamentdə adətən Prezident tərəfindən gələn sənədlərin müzakirəsi ağırlıq təşkil edir. Halbuki 5 subyektin bu cür təşəbbüslərlə çıxış etmək hüququ var".

# Tələbələri kirayə mənzil bazarında hansı problemlər gözləyir?

***A**rtıq ölkəmizdə koronavirusun yumşalması yaranmış problemlərin öz yoluna düşməsinə imkan yaradıb. Xüsusilə də, bu il yeni dərs ili yeni şəraitdə, pandemiya dövründə başlayır. Prezident İlham Əliyev yeni dərs ilinin başlanması və Bilik Günü münasibətilə müəllimlərə, tələbələrə və şagirdlərə müraciətində də bildirib ki, pandemiya dövründə yeni dərs ili yeni formatda təşkil ediləcəkdir: "Bizim əsas məqsədimiz ondan ibarətdir ki, Azərbaycan xalqını bu bəladan qoruyaq və qəbul edilmiş bütün qərarlar bu məqsədi güdür".*



Sentyabrın 15-dən dərslərin başlanılması, həmişə olduğu kimi, bu il də tələbələri ən çox narahat edən problemlərdən biri kirayə mənzil axtarışı və mənzil bazarında qiymətlərin hansı vəziyyətdə olmasıdır. Sögügedən məsələ ilə bağlı maklerlə bildirdilər ki...

### "Əvvəl müştərilərimizə verməyə ev tapa bilmirdik, indi isə müştəri"

Bildiyiniz kimi pandemiya bir çox sahələrə təsir edib. Onlardan biri də kirayə mənzil bazarıdır. Ali təhsil müəssisələrində təhsilin distant formada davam edəcəyini nəzərə alsaq hal-hazırda kirayə mənzil bazarında durğunluq hökm sürür.

Yasamal rayonu, Şərifzadə küçəsində yerləşən "Cahangir Makler"in sahibi Ağaqulu Cahangirov: "Əvvəl müştərilərimizə verməyə ev tapa bilmirdik, indi müştəri tapa bilmirik. Gün ərzində 1-2 nəfər ancaq olur. Əslində ötən illər abituriyentlər qəbul xəbərlərini eşidən kimi başlayırdılar ev axtarmağa. Ev qıtlığından da şikayətlənən olurdu, qiymətlərin baha olmasından da. İndi isə ev çoxdu. Amma müştəri yoxdu".

Makler Bayram Kərimov isə deyir ki, ötən il avqust ayında həm tələbələr, həm məktəblər açılırdı deyə ev almaq və ya kirayə etmək üçün gəlirdilər: "Tələbat çox olurdu deyə, qiymət artımı olurdu. Bəziləri də tətilə gedəndə fikirləşirdi ki, ev əldən çıxmasın deyə lap 1-2 ay tətil müddətində evin pulunu ödəyirdi. İndi o hallar yoxdur".

Makler Zakir Kazımov: "Çox behlərimiz qayıdıb. Hər zaman 1 ay əvvəlcədən behlər qoyulurdu. İndi isə internetdə elanlar yerləşdirsək də zəng yoxdur. Hazırda kirayə mənzil bazarında yaşanan durğunluğa səbəb daha tələbələrin oktyabr ayınadək onlayn təhsil alacaq olmalarıdır. Ümumiyyətlə, məlum xəstəliyin yaxın gələcəkdə özünü necə göstərəcəyi və ona uyğun olaraq dərslərin hansı formada davam etdiriləcəyi bilinmədiyindən valideynlər də tərəddüd içindədi".

İlqar Osmanov, valideyn: "Kirayə ev məsələsi biz valideynlər üçün problem olaraq qalır. Bilmirik ardıcıllıq necə olacaq. Sonrakı vəziyyət göstərəcək".

Abbasqulu Səfərov, valideyn: "5 nəfər tələbə ilə birlikdə kirayə ev tutmuşduq mənim qızım da orada qalırdı. Aya 70 manat pul ödəyirdik. Sərfəli evlər tapmaq çətin olur. Ona görə də məcburuq əldə saxlamışıq. Hər ay ödüyürük ki, başqasına kirayə verilməsin".

Bəli, az sayda valideyn var ki, evi əlindən çıxarmamaq üçün artıq 6 aydır ki, övladının yaşamadığı evə görə pul ödəyir. Amma baxmayaraq ki, təklif tələbi xeyli üstələyir, qiymətlərdə azalma yoxdur. Tələbi azaldan isə təkcə tələbələrin yoxluğu deyil. Onu da deyək ki, evləri kirayənişinsiz, əmlakçıları müştərisiz qoyan səbəb həm də ölkəyə turistlərin gəlməməsidir. Əcnəbilərə yüksək qiymətə günlük verilən evlər artıq aylıq kirayəyə çıxarılır. Görünən odur ki, pandemiyanın gətirdiyi karantin rejimi kirayə mənzil bazarına təsirini hələ bir müddət qoruyub saxlayacaq".

Azərbaycanda həyata keçirilən sosial siyasətin əsasında əhalinin sosial rifah halın yaxşılaşdırılmasının dayandığını sübut edən bir sıra faktlar var. Xüsusilə də son atılan addımların əksəriyyətinin bu istiqamətdə atılması ölkəmizdə vətəndaş amilinin ən üst pillədə durduğunun göstəricisidir. Aztəminatlı, şəhid ailələri, müharibə əlilləri və digər vətəndaşlarımızın sosial problemlərinin həlli istiqamətində verilən qərarlar, imzalanan sənədlər bunun bariz göstəricisidir.

Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi də xalqa və dövlətə sədaqətli, layiqli xidmət prinsipi üzərində qurulmuşdur və növbəti illərdə də həmişə olduğu kimi, bu sahədə də problemlərimiz aradan qalxacaq.

***R.HÜSEYNOVA***

# "Sumqayıt Kimya Sənaye Parkının açılışı iqtisadiyyatın gələcək inkişafına hesablanıb"



"**S**umqayıt şəhərinin inkişafı, burada yaşayan insanların vətənpərvərliyi, fəallığı ilə fəxr etmək olar". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komitə sədri qeyd edib ki, şəhər respublikanın ikinci böyük sənaye mərkəzi olmaqla, günü-gündən abadlaşır, gözəlləşir və iqtisadiyyatını inkişaf etdirir.

"Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sumqayıtın inkişafına göstərdiyi qayğı və diqqət sayəsində artıq şəhər regionun iri sənaye müəssisələrindən birinə çevrilmiş, daxili tələbatın ödənilməsi və ixracın artırılması baxımından xeyli müvəffəqiyyətlər əldə edilmişdir. Ölkə rəhbərinin bu günlərdə Sumqayıt Kimya Sənaye Parkının açılışında, "şəhərin timsalında yeniləşən, güclənən Azərbaycan görürük" ifadəsi buna əyani sübutdur. Sənayeləşmə, sənaye mərkəzlərinin yaradılması, xarici investorların ölkəyə cəlb edilməsi, ixrac potensialının yüksəldilməsi, keyfiyyətli məhsul istehsal edilməsi, peşə ixtisasının artırılması, kadrların hazırlığının yüksəldilməsi və ilk növbədə, Azərbaycanı regionun sənaye mərkəzinə çevirmək qarşıda duran əsas vəzifədir. Ölkəmizin rəhbəri Cənab İlham Əliyev Simya Sənaye Parkının açılışında bütün bunları bir daha ifadə edərək, uğurlara nail olacağımıza əmin olduğunu bildirmişdir. Bu əminlik, əlbəttə ki, düşünülmüş düzgün iqtisadi siyasətə, imkan və şəraitə, ölkədə yaradılmış ictimai sabitliyə, xalq-prezident birliyinə, vətəndaş həmrəyliyinə, xarici investorların ölkəmizə artan marağına əsaslanır. Cənab Prezidentimizin xatırlatdığı kimi, Azərbaycan dünyaya açıqdır. Burada işləmək və yaşamaq, sahibkarlığı inkişaf etdirmək, uğurlar qazanmaq üçün hər cür şərait vardır. Ölkədə sənayeləşdirmənin sürətləndirilməsi, yeni sənaye mərkəzlərinin, müəssisələrinin yaradılması iqtisadi inkişaf, firavan həyat, əlavə gəlir, beynəlxalq aləmə çıxış və respublikanın şöhrətləndirilməsidir. Bu məqsəd uğrunda mübarizə gələcəyimiz, dövlətçiliyimizin möhkəmləndirilməsi, müstəqilliyimizin təmin olunması və torpalarımızın azadlığı üçün əhəmiyyətlidir. Çünki iqtisadiyyatı möhkəm olan dövlət qələbələr qazanmağa qadirdir. Bu baxımdan, Sumqayıt Kimya Sənaye Parkının açılışı ölkə vətəndaşlarının hər birinin ürəyindəndir və iqtisadiyyatın gələcək inkişafına hesablanıb", deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Pensiya sistemində yeni təkmilləşdirmələr aparılacaq

**P**rezident İlham Əliyevin tapşırığına uyğun olaraq, pensiya təminatının inkişafına, sığorta-pensiya sisteminin təkmilləşdirilməsinə istiqamətlənən islahatlar davam etdirilir. Dünya təcrübəsində pensiya islahatları başlıca olaraq sərt sığorta prinsiplərinin gücləndirilməsinə yönəlsə də, Azərbaycanda bu islahatlar ilk növbədə pensiyaçıların maraqlarına, pensiyaların davamlı artımına, sosial təminat sistemində humanist yanaşmaların gücləndirilməsinə xidmət edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən SİA-ya verilən məlumata görə, bunun göstəricisi kimi, ötən il və cari ilin əvvəlində pensiyalarda əhəmiyyətli artımlar edilib, 2019-cu ilin əvvəlindən fərdi hesabında ən kiçik məbləğdə belə pensiya kapitalı qeydə alınanlara 25 il sosial sığorta stajı hədiyyə edildi. Yalnız son bir ilin pensiya artımları pensiyaçılarımıza illik əlavə olaraq 1 milyard manatdan artıq vəsait ödənilməsini nəzərdə tutur. Təkcə bu ilin 8 ayında pensiya təminatı üzrə ötən ilin müvafiq dövrü ilə müqayisədə 576,5 milyon manat (24%) çox olmaqla 3 milyard manata yaxın vəsait yönəldilib. Eləcə də son bir ildə pensiyalarda 30%-dək artım qeydə alınmaqla orta aylıq pensiya 300 manata, yaşa görə pensiyanın orta aylıq məbləği 25,2% çoxalaraq 330 manata yaxın olub.



Habelə 2020-ci ilin əvvəlindən pensiya yaşına çatan, lakin pensiya hüququ yaranmayan şəxslərə yaşa görə müavinət almaq hüququ verilib və artıq 20 mindən çox şəxs bu hüquqdan yararlanıb. Eyni zamanda, ailə başçısını itirmiş ailələr üçün 2020-ci ilin əvvəlindən iki təminat növündən - ailə başçısını itirməyə görə pensiya və ya ailə başçısını itirməyə görə müavinətdən daha yüksək məbləğdə olanını seçmək, sağlamlıq imkanları məhdud uşaqlara sağlamlıq imkanları məhdudluğa görə müavinətlə birgə ailə başçısını itirməyə görə müavinəti və pensiyanı da almaq hüququ verilib.

Hazırda pensiya qanunverciliyində nəzərdə tutulan köklü dəyişikliklər də vətəndaşların sosial təminat sahəsində hüquqlarının, pensiyaçıların sosial müdafiəsinin daha dolğun təminatına, onların daha üstün məbləğdə ödənişlər almalarına şərait yaradılmasına xidmət edir. Məsələn, hazırda aparılan islahatlar:

pensiyaçının öz seçiminə uyğun olaraq hüququ olan istədiyi digər pensiya növünə, o cümlədən, yaşa görə pensiyadan əlilliyə görə pensiyaya keçə bilməsinə imkan verilməsi, ailə başçısını itirmiş şəxsə hüququ yaranan, məbləği daha çox olan əmək pensiyası və ya sosial müavinəti seçmək hüququnun verilməsi, ailə başçısını itirməyə görə pensiya hüququ olan ailə üzvünün özünün pensiya və ya müavinət hüququ yarandıqda, həmin vaxta qədər aldığı, yəni ailə başçısını itirməyə görə onun payına düşən pensiya məbləğinin digər ailə üzvləri arasında bölüşdürülməsi,

Əmək şəraiti zərərli və ağır işlərdə çalışanların güzəştli pensiya təminatına əlçatanlığının artırılması, Pensiyanın yenidən hesablanmasında pensiyaçıların mənafeyinə uyğun mexanizmin tətbiqi, Pensiya təyinatları sahəsində proaktiv xidmətlərin genişləndirilməsi və pensiyanın yenidən hesablanmasının avtomatlaşdırılması və s. kimi istiqamətləri əhatə edir.

Onu da qeyd edək ki, hazırkı islahatlarla bağlı pensiya qanunvericiliyində nəzərdə tutulan dəyişikliklərin layihəsində xüsusi şərtlərlə pensiya təyin olunmuş şəxslərin (hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və b.) pensiyaları ilə bağlı hər hansı təklif mövcud deyil.

Xüsusi şərtlərlə pensiya təyin olunmuş şəxslərin pensiya təminatı ilə bağlı hər hansı təşəbbüs və təkliflər olduqda, həmin şəxslərin mənafeyinə, davamlı pensiya artımına xidmət edəcək. Bu məsələlərlə bağlı təkliflər olarsa açıqlanaraq ictimai müzakirə şəraitində baxılacaq. Hazırda aparılan islahatların məqsədi - pensiya artımına, hər bir şəxsin layiqli pensiya təminatına yönəlib ki, bu da dövlətin sosial siyasətində əsas prioritetlərdən birini təşkil edir.

# Neft və qazın nəqli ilə bağlı İsraildən böyük Təklif



**İ**srail Körfəz ölkələrindən neft və təbii qazın Avropa və Şimali Amerika ölkələrinə nəqli üçün boru xəttinin çəkilməsini təklif edəcək. SİA-nın məlumatına görə, bu barədə ölkənin "Globes" iqtisadiyyat nəşri bildirib. Xəbərə görə, layihənin hazırlıqlarına başlanılıb. Hələ ki, diplomatik münasibətlər qurulmamasına baxmyaraq, Səudiyyə Ərəbistanının da bu xəttə qoşulacağı qeyd olunub.

"Tərəflər enerji təhlükəsizliyinin artırılması hədəfi ilə regional nəqliyyat sistemləri də daxil olmaqla, enerji sahəsindəki layihələrlə əməkdaşlığı inkişaf etdirəcək və qüvvətləndirəcək", - açıqlamada deyilir. Boru xətti layihəsinin hədəfləri arasında neft və qaz nəqlinin müddətinin azaldılması və Süveyş kanalından kəçidi məhdudlaşdırmaqla maliyyə israfının qarşısının alınması var. Layihənin İsrail iqtisadiyyatına yüz milyonlarla dollar gəlir gətirəcəyi vurğulanır.

# “5-ci kalonun” pusquda yatan satqın dələduzları...

*Əli Kərimli, Sevinc Osmanqızı, Cəmil Həsənli, Qənimət Zahid... haraya qədər?*

***Dahilərin ermənilər haqqında dedikləri fikirləri oxuduqca dəhşətə gəlirsən, bir daha onların kimliyindən xəbərdar olursan. Bu gün erməni həyasızlığı və təcavüzkarlığı o qədər həddini aşıb ki, bir daha belə bir alçaq, oğru, xain, işğalçı və faşist xislətli xalqla enyi regionu bölüşdüyümüzə görə təəssüf hissi keçiririk. Böyük Teymurləng deyirdi: “Tarix mənə 2 şeyi bağışlamayacaq: Birincisi, erməniləri bir etnos kimi məhv etmək istəsəm də, ancaq etmədiyimə görə, ikincisi, bütövlükdə erməni xalqı alçaq və rəzil xalqdır. Heç vaxt fikrini üzə deməz, gizli saxlayar, imkan düşən kimi qanını tökər. Onları cəzasız buraxdığıma görə”.***

Görkəmli fransız yazıçısı Aleksandr Düma isə yazırdı: “Ermənilər həmişə erməni dinindən fərqli dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə, onlar öz fikirlərini, hisslərini və məramlarını gizlədən vücudlara, habelə dələduzlara və fırıldaqçılara çevrilmişlər”.

Bu gün özünü “müxalifətçi” adlandıran, satqın, xəyanətkar, xarici beynəlxalq təşkilatların işlədilmiş alətinə çevrilən və “5-ci kolon” deyilən dələduzlar yığını - AXCP sədri Əli Kərimli və onun ipli kuklası, “Milli Şura”nın sədri Cəmil Həsənli, çörəyi dizinin üstündə olan satqın Gültəkin Hacıbəyli, ingilis ruporu mənəviyyatsız Sevinc Osmanqızı və bu kimi vücudları belə erməniləşən, ermənidən betərlərdir. Anti-Azərbaycan dairələrin əlində alətə çevrilən və millətimizin adına ləkə olan bu satqınlar Azərbaycana qarşı çirkin təbliğat aparmaqdan yorulmurlar. Onlar Avropada erməni fondlarının maliyyəsi hesabına sosial medianın imkanlarından yararlanıb ölkəmizin mövcud reallıqlarını “unudaraq”, yalan, böhtan yolu ilə Azərbaycanda siyasi proseslərə müdaxilə edirlər. Bununla da, “söyüş müxalifəti”nin üzvləri - Leyla, Arif və Ramiz Yunuslar, Arif Məmmədov, Sevinc Osmanqızı, Orduxan Teymu rxan, Qurban Məmmədov, Tural Sadıqlı, Məhəmməd Mirzəli, Nahid Cəfərov, Rəfail Piriyev, Vidadi İsgəndərli və digərləri öz aləmlərində Azərbaycan hakimiyyətinə təzyiq göstərdiklərini düşünürlər...

Onları narahat edən Azərbaycanın dövlətçiliyin möhkəmləndirilməsi yolu ilə inamla irəliləməsi, sosial-iqtisadi sahələrdə dinamik inkişafın təmin edilməsi, xalqın mənafeyinin ciddi şəkildə qorunması, xalq-iqtidar birliyinin dönməz xarakter alması, beynəlxalq aləmə inteqrasiya güclənməsi, qlobal layihələrin uğurla gerçəkləşdirilir. Bütün bunlara görə narahatlıq hissi keçirən ermənipərəst dairələr əndişələnir, müxtəlif vasitələrlə ölkəmizə təzyiq etməyə çalışır, “beşinci kolon”a maliyyə dəstəyi göstərməklə, habelə digər şirnikləndirici metodlarla ayrı-ayrı siyasi qüvvələri ələ alır, dövləti zəiflətmək, Konstitusiya quruluşunu dəyişmək üçün, necə deyərlər, dəridən-qabıqdan çıxırlar. Şübhəsiz ki, belə bir yolla məkrli niyyətin Azərbaycanda reallaşdırılması mümkün deyil. Çünki, dövlətimiz ötən əsrin 90-cı illərinin əvvəllərindəki kimi gücsüz, kövrək vəziyyətdə deyil, həm siyasi, həm də iqtisadi cəhətdən güclü, beynəlxalq dairələrdə nüfuz sahibinə çevrilən lider dövlətlərdəndir.

Ancaq bu gün olmayan adla “müxalifətçiyəm” deyərək söyüş ritorikasına meydan açmaqla mənəvi cəhətdən zəifliklərini,



gücsüzlüklərini, əxlaqi baxımdan isə naqisliklərini və nəhayət yoxluqlarını nümayiş etdirirlər. Yoxsa elementar insanlıq tərbiyəsindən uzaqlaşaraq anti-Azərbaycan şəbəkəsinin qrantları hesabına bu cür milli-mənəvi və əxlaqi dəyərlərimizə zidd əməllərə yol verməz, Vətənə qarşı xəyanət yolu tutmaz, dövləti, dövlətçiliyi, yüksək vəzifəli rəsmi şəxsləri təhqir etməzlər.

### Avropadakı “söyüş çetesi”nin ruporu - Vidadi İsgəndərli

Bu, o Vidadi İskəndərlidir ki, vaxtilə dələduzluq əməllərinə görə prokurorluq orqanlarından xaric edilən, sərxoş halda ictimai asayişi pozduğuna, dövlət əleyhinə çağırışlar etdiyinə, ayrı-ayrı şəxslərin ünvanına nalayiq sözlər işlətdiyinə görə həbs olundu və azad edildikdən sonra Azərbaycandan qaçaraq Fransada “siyasi mühacir” adı altında maskalandı, indi isə sosial şəbəkələrdə özünü “demokratik hüquq müdafiəçisi” kimi təqdim edərək hər gün böhtan və şantaj xarakterli çıxışlar edir. V.İsgəndərlini yaxından tanıyan rusiyalı yazar Oleq Nikolayev onun ermənilərdən “qidalandığını” deyib. Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın yaxın qohumu Sergey Akopyan və Rusiyada vəkillik fəaliyyəti ilə məşğul olan Araz Mirzobekyanla bir qrupda oxuduğunu, onlarla dostluq etdiyini bildirib.

Xalqımız belə üzdəniraq şəxsləri haqlı olaraq Vətən xaini kimi tanıyır və nifrətini bəyan edir. Ermənidən betərlərin, qranta görə hər şeylərini satanların “çörəyi həmişə dizlərinin üstündədir”. Ona görə də bir-birilərini hər an satmağa adət ediblər. Birinin yalı o birisindən çox olan kimi bir-birilərini ayaqlayırlar.

### Qurban Məmmədov: “Əli Kərimli gəda və tərbiyəsiz, Sevinc Osmanqız qranta mənəviyyatını satan rəzil qadındır”

Vaxtı ilə fəaliyyət göstərən, bu gün ortada qalan “AzeriFreedom” kanalının təsisçisi və rəhbəri olmuş, özünü “hüquq müdafiəçisi” adlandıran Qurban Məmmədovla jurnalist Sevinc Osmanqızı və AXCP sədri Əli Kərimli arasında münasibətlər daha da gərginləşib. Q.Məmmədovun sözlərinə görə, daha öncə də S.Osmanqızı, Əli Kərimli və Cəmil Həsənli bir yerdə, guya onun 40 minlik kanalını bağlatdırmışdı: “Əli Kərimli Sevinc Osmanqızının efirində mənim ünvanıma həyasızcasına böhtanlar təşkil etdi. Guya bunların tamaşaçısı bunlara zəng edir və haqqımda bəzi ittihamlar səsləndirir. Onlar əvvəlcədən düzüb-qoşurlar ki, guya onlara zəng gəlir. Bunlarda abır-həya yoxdur. Veclərinə də deyil, insanlara yalan danışırlar. Bütün bunlardan bir daha aydın olur ki, S.Osmanqızı və onun kimi xaricə sığınan, oradan Azərbaycan əleyhinə təbliğat aparanların məqsədi, məramı heç də xalqın halına yanmaq, vətənpərvərlik, jurnalist fəaliyyəti deyil. İndi də başlayıblar Tofiq Yaqublu “faktoru” vasitəsilə siyasi divident qazanmağa. Tofiq Yaqublunun həyatı indi radikalların faydalanmağa çalışdığı alətə çevrilib”.

Amma bu, bir reallıqdır ki, xaricdə oturub erməni dəyirmanına su tökmək, Azərbaycan dövləti haqqında qərəzli fikirlər səsləndirmək, təxribatçı videoroliklərlə cəmiyyətimizdə çaşqınlıq yaratmağa cəhd etmək heç kimə, eləcə də, heç bir ailəyə başucalığı gətirməz. Eyni zamanda, istər bütün vücudu erməniləşən satqın Əli Kərimli, ingilisdilli əyalət tribunası S.Osmanqızı, əxlaqsız Qənimət Zahid, mənəviyyatsız Vidadi İskəndərli və bu kimi dələduzlar anlamalıdır ki, Azərbaycanda onlara yer yoxdur və Azərbaycan xalqı belələrini çoxdan arxivin iylənmiş arxivə tullayıb. Çünki onların əsl mahiyyəti alət olmaqdır və öz istifadə müddətlərini çoxdan bitiriblər. Bir də haraya qədər?...

***Rəfiqə HÜSEYNOVA***

## Tofiq Yaqublunun Qarabağ qazisi olması ona haqq verirmi ki..?

*Yaxud, Əli Kərimlinin trolları Adil Qeybullanı niyə söyüş atəşinə tutdular?*

***Hələ bir müddət əvvəl radikal müxalifətin saxta Qarabağ qazilərinin qanunsuz tikintiləri ətrafında siyasi haray-həşir qaldırmaları əsl qazilərin də hiddətinə səbəb oldu. Sonda bəlli oldu ki, heç də güllə və s. müharibə yaraları almayan, əllərinə çəlik götürüb, “yaralı qazi” görüntüsü və klounluqları vasitəsi ilə insanlara hədə-qorxu gələnlərə qahmar çıxanlar da məhz AXCP - “Milli Şura” cütlüyü oldular. Əli Kərimlinin, Cəmil Həsənlinin, Gültəkin Hacıbəylinin və digərlərinin saxta qazilər ətrafındakı səs-küyləri də puça çıxmış oldu.***



Məsələ ondadır ki, hətta həqiqi qazi olsa belə, onun öz titulundan sui-istifadə edib hər hansı qeyri-qanuni hərəkətlər etməsi doğru, yaxud alqışlanası seçim sayıla bilməz. Əksinə, belə addım bütövlükdə qazi adına yaraşmayacaq hal kimi ictimai rəy tərəfindən də qınanılır. O da qala saxta qazilərin bəlli əməlləri ola...

### Məhkəmənin çıxardığı qərar onun Qarabağ qazisi olmasına görə dəyişdirilməlidirmi?

Lakin sirr deyil ki, qazilərimizə dövlətimiz tərəfindən verilən imtiyazlar, yaradılan münbit şəraitlər, sosial-məişət vəziyyətlərinin yaxşılaşdırılması, mənzil və avtomobillərin verilməsi yönündə atılan addımlar bir daha sübut edir ki, Qarabağ veteranlarımıza göstərilən diqqət və qayğı daimidir.

Bu əsnada, bu gün “Milli Şura”-AXCP cütlüyünün indi də Tofiq Yaqublunun üzərində siyasi xal toplamaq cəhdləri istər-istəməz belə bir sual yaradır ki, Qarabağ qazisi olmaq ona istədiyi qanunsuzluqları törətməyə yaşıl işıqmı yandırır? Əlbəttə ki, bu, belə deyil və ola da bilməz. Azərbaycanda hər kəs qanun qarşısında bərabərdir və bunu qanunları pozaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edən məmurların həbsləri ilə də sübut edə bilərik.

İndi, T.Yaqublunun cinayət (iri, yaxud xırda olması əsas deyil) əməlinə rəvac verməsi, məhkəmənin çıxardığı qərar onun Qarabağ qazisi olmasına görə dəyişdirilməlidirmi? Və ya Tofiq Yaqublu sosial şəbəkələrdə hakimiyyətə qarşı söyüş, təhqir yağdırırsa, ona bu haqqı Qarabağ veteranı olmasımı verir? Yəni fakt budur ki, Qarabağ qazisi olmaq onun “siyasi mübarizə” fonunda sərgilədiyi mənfi xarakterini əsla ört-basdır edə də bilməz.

### Baxmayaraq ki, hakimiyyət T.Yaqublunun sağlamlığına ciddi fəsad yaranarkən onu həbsxanadan çıxarılaraq mülki xəstəxanalardan birinə müalicəyə göndərdi...

Fəqət, daha bir məsələ T.Yaqublunun aclıq aksiyası ətrafında yaradılan şoudur. Bu “zümrəni” tanıyanlar çox yaxşı anlayır və bilirlər ki, əslində, nə Əli Kərimli, nə də digərləri Yaqublunun acılığı maraqlandırmır. Onlar hətta onun daha ağır vəziyyətə düçar olmasını arzulayırlar. Baxmayaraq ki, hakimiyyət T.Yaqublunun sağlamlığına ciddi fəsad yaranarkən onu həbsxanadan çıxarılaraq mülki xəstəxanalardan birinə müalicəyə göndərdi, “Milli Şura” hay-həşirçiləri bu humanist addıma da öz təbirlərincə, əsassız şəkildə ləkə yaxmağa cəhdlər göstərdilər. Bu isə sübut edir ki, əslində, onların maraqlarında olan T.Yaqublu üzərindən dövlətçilik maraqlarına qarşı qarayaxma kampaniyaları aparmaq, pul-para əldə etməkdən ibarətdir. Hətta belə bir qənaətə də gəlmək mümkündür ki, mövzunu gündəmdən çıxmağa qoymamaq üçün onu aclıq aksiyası keçirməyə belə onlar təhrik ediblər.

### Adil Qeybulla bugünlərdə ifşaedici məlumatla gündəmə gəldi və...

Təəssüfedici məqamlardan biri də, Əli Kərimlinin müavini, Tofiq Yaqublunun isə qızı Nigarın Həzinin (Yaqublunun) təsir gücü ilə aclıq aksiyasını davam etdirmək təhrikləridir. Artıq bu cür əsasa da gəlmək olar ki, “mübariz cütlük” AXCP sədri tərfindən çoxsaylı vədlər alıblar - üzərlərinə götürdükləri öhdəliyi yerinə yetirməkdən ötrü. Əbəs deyil ki, həkim Adil Qeybulla bugünlərdə ifşaedici məlumatla gündəmə gəldi və səsli-küylü açıqlama verərək bildirdi ki, Tofiq Yaqublunun aclıq aksiyası keçirməsində bəzi adamlar (başda Əli Kərimli olmaqla “Milli Şura”nın üzvləri) maraqlıdırlar.

Əgər belə olmasa idi, onlar bu ifşanın yalan olduğunu sübut etmək üçün tutarlı faktlar gətirə, arqumentlə çıxış edərdilər. Amma nə baş verdi? Əli Kərimlinin trolları dərhal A.Qeybullanı hədəfə götürüb, onu ən pis formada təhqir etdilər. Bununla da, əslində, həkimin iddialarını təsdiqləmiş oldular.

***Rövşən NURƏDDİNOĞLU***

***P.S. Nə deyək, biz istəyirik ki, təki bütün cinayət işlədənlər etirafda bulunsunlar və peşman olduqlarını ifadə edərək, dövlətin humanizm siyasətindən yararlanaraq azadlığa çıxsınlar. Necə deyərlər, Allah qapılarını açsın...***

# Əvvəl şəxsiyyət, sonra siyasət...

## *Özündə olmayandan danışan Sevinc Osmanqızı kimləri mənəviyyatsız adlandırır?*

***Belə bir deyim var: "Əslində siyasət çirkin deyil, onunla çirkin insanlar məşğul olanda çirkin olur". Dünənə qədər dağıdıcı müxalifət düşərgəsində koronavirusla bağlı "Evdə qal"a alışa bilməyən radikal düşərgə təmsilçiləri yumuşalma olduqca ölkədə hər şeyin rəvan getdiyi bir məqamda, necə deyərlər: aşığın sözü qurtaranda "yarım, yarım" dediyi kimi, indi də naftalin qoxulu siyasətçilərin bir-birilərini mənəviyyatsız, satqın adlandıraraq "böyük iddiada" olduqlarının nümayiş etdirirlər.***

Ancaq iddiaları böyük ola bilər - amma onlar, gerçəkdən də, çox cılızdır. Xüsusilə də, "REAL" sədri İlqar Məmmədov və partiyanın idarə heyətinin üzvü Rəsul Cəfərova bəraət verməsi, Məmmədova 234 min, Cəfərova isə 57 min 400 manat mənəvi təzminat təyin edilməsi, sonra "REAL"-ın qeydiyyatdan keçməsi, satqınçılıqla qürur duyan Əli Kərimlinin iddialarının təmin edilməməsi, ümumiyyətlə, siyasət meydanın bir yox kimi qəbul edilməsi, cəbhəçilərin lap cızdığını çıxarıb. Başlayılar açıq şəkildə barələrində qərar çıxarılanları aşağılamağa, onları hakimiyyətlə anlaşmada ittiham etməyə.



### Radikal müxalifətin korafəhimliyi...

Belə canfəşanlıq edənlərin önündə AXCP sədri Əli Kərimli ilə "Milli Şura"nın "tryapka"sı Cəmil Həsənli hələ də korafəhmlik, perspektivsizlik və mitinqomaniyadan qurtula bilməyib. Bu o Əli Kərimlidir ki, sürəkli olaraq tərəfdarlarına "sehirli artefakt"lar vəd edir, hər vədi də fiasko ilə sonuclanır. Sovet dönəmində mərkəzi televiziyada "Nağılların qonaqlığı" adlı uşaq verilişi vardı. Məşhur diktor Valentina Andreyevanın aparıcılıq etdiyi həmin proqramın ən tanınan personajı "Nağıl danışan nənə" idi.

Bu gün ABŞ-a sığınmış və hər şeyini qrantlara satmış Sevinc Osmanqızı da "YouTube" kanalında həmin "Nağıl danışan nənə" funksiyasını yerinə yetirməyə çalışır, səsinin tembrini bəhs etdiyi mövzudan asılı olaraq dəyişir, mitinqlərdən bəhs edəndə vəcd notlarını bol edir, "hakimiyyətin əzab verdiyi xalq"dan danışanda faciəvi çalarları seçir.

Son dönəmlərdə siyasətçilik iddiasına düşmüş bu xanımın "ozan" verballığının qəhrəmanları arasında Tofiq Yaqublu kimi siyasətə atılıb siyasətin atdığı fiqurlarla yanaşı, Ə.Kərimli xüsusi yer tutur. O kəs ki, Azərbaycan siyasətinin zibiliklər anbarında tozlanmış maneken olmasına rəğmən, Pinokkio təki özünü canlı bilir. Əli Kərimlini katibəsi olan S.Osmanqızının hər gün kanalında satqın və mənəviyyatsız AXCP sədri Əli Kərimlinin dediklərini papuqay kimi təkrarlaması mənəviyyatsızlıq deyilmi? Məsələn, AXCP lideri buyurur ki, sən demə, Azərbaycan hakimiyyətinin son qərarları, fərmanlar, sərəncamlar, vətəndaşların rifah halının yüksəlməsinə və sosial sahədə islahatlara yönəlmiş bütün (!) addımlar yanvarın 19-da "Məhsul" stadionunda keçirilmiş "möhtəşəm" mitinqdən sonra "iqtidarın qorxuya düşməsinin nəticəsi" imiş. Bəla ondadır ki, Əli Kərimli bu marazmı sürəkli təkrarlayır, Avropa ölkələrindəki "müstəqil bloqer"lər də Sevinc Osmanqızı və digərləri səs-səs verərək AXCP "liderini" az qala Pasxa atasındakı bütə çevirirlər. Bu, irrealıq, xülya, sərsəm təsəvvürdür.

Reallıq isə odur ki, Prezident İlham Əliyev dövlət başçısı seçiləndən bəri daxildən və xaricdən qaynaqlanan çoxsaylı çağırışlarla qarşılaşıb, bir dəfə də geri çəkilməyib. O, heç vaxt ani dividentləri və ya siyasi konykturanı düşünməyib. Amma ölkənin taleyi xarici paytaxtlardakı qaranlıq kulislərdə qəbul ediləcək hansısa qərarların öhdəsinə buraxılmayıb, buraxılmayacaq da. Bunu AXCP sədri Əli Kərimli çox gec olsa da, anlamalı, ya da anlamağa çalışmalılıdır.

### "Köhnə" tullantılar "yeni" olanda...

Bu sözləri yenə də özünü yuyulmamış qaşıq kimi ortaya atan Əli Kərimlinin "mətbuat katibi", "OsmanqızıTV"-nin sahibi Sevinc Osmanqızı özünü "savdlı siyasətçi" adlandıraraq AXCP sədrini tənqid etdiklərinə görə bir saatdan da kanalında REAL-çıları təhqir etərək, onları mənəviyyatsız, AXCP sədri Əli Kərimlini "savadlı, əsl siyasətçi" adlandırıb. Təəccüb etmirik. Çünki o şey ki, onda yoxdursa, ondan danışar. S.Osmanqızının çürük məntiqi belə olmalıdır. Həyasızcasını gecə-gündüz xalqı aşığlayan S.Osmanqızı "xalq yanğısı", "vətən qayğısı" deyərkən bir dəfə də olsun özü-özünə sual edir ki, nəyə əsaslanıb belə danışıram. Abırsızın abrı olmaz, deyiblər. Həmçinin sual yaranır: S.Osmanqızı gün ərzində paylaşdığın 5-10 status və ya paylaşımdan heç olmasa birini Dağlıq Qarabağ probleminə, Ermənistanın işğalçılıq siyasətinə həsr edirsənmi? Əgər sən doğrudan da vətənpərvərdirsə, hansısa azərbaycanlının təzyiq və ya işgəncəyə məruz qalması qəlbini narahat edirsə, heç olmasa 2014-cü ildən indiyə qədər Ermənistanda girov saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevin dərdinə şərik çıxmalı idin. Əfsuslar olsun ki, S.Osmanqızının səhifəsində hər iki şəxsin hüquqlarının müdafiəsinə reaksiya yoxdur. Ola bilsin sifariş aldığı dairələr ya ona bu yöndə fəaliyyəti qadağan ediblər, ya da o özü atasını şəhid edən ermənilərin xətrinə dəymək istəmir.

Bax, budur S.Osmanqızının əsl siması və xisləti. S.Osmanqızının vətənpərvərlik hissindən məhrum olması ilə yanaşı, onun bəzi hadisələrə qeyri-peşəkar, lağ-lağı ilə yanaşması da diqqət çəkir. Xəyanət başqa necə olur ki?! Təbii ki, hər kəs bilir ki, bütün bunları onlar sifariş əsasında həyata keçirdirlər. Birbaşa erməni lobbiçilərinin və diasporasının tapşırıqlarını yerinə yetirirlər. Onlara erməni lobbiçilərinin açıq və ya dolayısı ilə göstərdiyi maliyyə dəstəyi hər kəsə bəllidir. Ancaq insan nə qədər şərəfini və ya ləyaqətini itirə bilər ki, indiki situasiyada öz xalqına və dövlətinə qarşı bu cür iyrənc şər-böhtan atasan?! Ermənidən də artıq erməni, buna deyərlər. Artıq bu şəxslərə hüquqi qiymətin verilməsinin vaxtı çatıb. Xalqımız onları tarxin zibilliyinə atıb. Hüquqi qiymətin verilməsi zamanıdır. İnşallah yaxın gələcəkdə bunların şahidi olacağıq.

Əlbəttə, heç kim demir ki, cəbhənin o tərəfində erməni var deyə, bu tərəfdə müxaliflik eləmək olmaz. Sağlam cəmiyyətdə mütləq müxalif fikir də olmalıdır. Buna görə Azərbaycan hökuməti də normal, sivil müxalifətlə dialoq qurur, fikirlərini dinləyir. Amma müxalifliyin də bir norması, qayda-qanunu var. Bu gün Sevinc Osmanqızının, Əli Kərimlinin etdiyi müxaliflik deyil, qrimlənmiş məkrdir...

Xülasə, çox uzatmayaq. Sevinc Osmanqızının qibləsi və amalı, ailəsindən və atasının şəhid ruhundan da artıq ehtiram bəslədiyi dəyəri - pula olan sevgisidir. Viktor Hüqonun gözəl bir sözü var: "Vətənini rüsvay etmək ona xəyanət etmək deməkdir".

Buyurun, görək "xəyanət yarışında" kim özünün mahiyyətini, mənəviyyatını daha çox ortaya qoyacaq. Çünki illər uzunu müstəqil Azərbaycana qarşı hazırlanan planlarının icrası daim fiaskoya uğrayır. İstəklərinin əksinə olaraq, Azərbaycan daha qüdrətli dövlətə çevrilir, günü-gündən inkişaf edir, təkcə mövcud olduğu regionda yox, onun hüdudlarından kənarda belə böyük nüfuz sahibi kimi çıxış edir. Azərbaycanın qazandığı uğurların miqyası artdıqca, antiazərbaycançı şəbəkənin qəddi daha çox əyilir, müvəffəqiyyətsizliyindən doğan əsəbi daha çox tarıma çəkilir.

Azərbaycana nifrət edən bu əxlaqsızların əsl üzü budur - "Vətən üçün pis olan, mənə faydalıdır". Onlar şəxsi maraqlarını dövlətin və xalqın maraqlarından üstün tutduqları üçün mənəvi nöqteyi-nəzərdən xəyanətkardan və fəraridən başqa bir şey deyil. Belələrində isə, nə abır, nə də mənəviyyat olar. Elə düz deyirlər: "Abırsızda abır olmaz".

***R.HÜSEYNOVA***

# Qurban Məmmədov məsələsi qardaşı Sərdar Cəlaloğlunu maraqlandırmır?

## ADP sədri: "Əgər yaxalanıbsa, yəqin ki, hansısa uzunmüddətli planı var"

Britaniyada "siyasi mühacir" adı altında yaşayan və sosial şəbəkələrdə "Azer Freedom" adlı canlı yayımı vasitəsi ilə Azərbaycan vətəndaşlarını kütləvi itaətsizliyə çağıran, dövlətçilik əleyhinə çağırışlar edən, eləcə də İnterpol xətti ilə haqqında axtarış elan edilən Qurban Məmmədovun Türkiyədə saxlanılması xəbərinin ardınca onun qardaşı - ADP sədri Sərdar Cəlaloğlu bu məsələyə ilginc münasibət bildirib.

SİA xəbər verir ki, "Qurban Məmmədovun həbsi ilə bağlı məndə hər hansı məlumat yoxdur. Bu barədə heç maraqlanmıram", deyən Cəlaloğlu qardaşının Türkiyədə saxlanılması xəbərini mediadan eşitdiyini söyləyib.

**"Nəticəsini də əvvəlcədən bilirdi"**

Lakin ADP sədrinin digər fikri də maraq doğurub. O, Qurban Məmmədovun uzunmüddətli planlarının olması ehtimalını irəli sürüb, ancaq həmin planların nədən ibarət olduğunu da deməyib: "İnterpol axtarışında olduğu halda Türkiyəyə gəlibsə, deməli, nəticəsini də əvvəlcədən bilirdi. Əgər yaxalanıbsa, yəqin ki, hansısa uzunmüddətli planı var". Görünür, S.Cəlaloğlu "uzunmüddətli plan" deyərkən, qardaşının günahkar olmasına işarə edib. Daha dəqiq desək, hətta ADP sədri də Q.Məmmədovun cinayət tərkibli əməllərə rəvac verdiyini dolayısı ilə etiraf edib.

Xatırladaq ki, Azərbaycanın Baş Prokurorluğu ona qarşı AR CM-nin 12.1, 34.2, 220.2 (kültəvi itaətsizliyiə çağırış və vətəndaşlara qarşı zorakılıq) və 12.1, 34.2, 281.2 (dövlət əleyhinə açıq çağırışlar) maddələri əsasında cinayət işi elan edib. Müvafiq qərara əsasən, Nəsimi rayon məhkəməsi Qurban Məmmədova həbs qətimkan tədbiri seçib. O, İnterpol xətti ilə beynəlxalq axtarışdadır. Son məlumata görə isə, Q.Məmmədovun oğlu atasının həbs xəbərinin doğru olmadığını sosial şəbəkə vasitəsi ilə bildirib.

***Rövşən RƏSULOV***

# "Soros" fondu müxalifətdən istifadə edir, sonra da zibil yeşiyinə atacaq

Son vaxtlar Əli Kərimli və Sevinc Osmanqızı fəaliyyətlərini "Soros" fondunun tələblərinə uyğun qurmaqla Azərbaycanın dövlətçilik maraqlarına zərbə vurmağa çalışırlar. Bununla Ə.Kərimli və S.Osmanqızı əsas maraqlarının maddi gəlir əldə etmək olduğunu nümayiş etdirirlər. "Yurddaş" Partiyasının sədri Mais Səfərli "Səs" qəzetinə açıqlamasında deyib.

Partiya sədri bildirib ki, bu gün radikal müxalifət düşərgəsində olan Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı və digərlərinin sərgilədikləri fəaliyyət əslində siyasətlə heç bir bağlılığı yoxdur: "Bu insanların fəaliyyətini araşdırdırdıqda, onların fəaliyyətinin siyasətlə heç bir əlaqəsi olmadığını görə bilərik. Demək onlar ki, onlar öz çevrələrində olan insanların maraqlarına və ilk növbədə də öz şəxsi maraqlarına işləyirlər. Bütün bunların da hamsının arxasında Azərbaycanı istəməyən və ümumiyyətlə, dünyada bu və ya digər ölkələrdə qarışıqlıq salmağa çalışan çalışan şeytani qüvvə dayanır, onlarada Corc Soros deyilən bir şəxs rəhbərlik edir. Yəni Sorosun maraqlarını təmin edirlər. Bildiyiniz kimi, Soros dünyanın ən varlı insanlarından biridir və o milyardları nəyin hesabına qazanır? Bu və ya digər ölkənin siyasi həyatına müdaxilə edir, orda özünə məxsus qüvvələri hakimiyyətə gətirmək istəyir və sonra hakimiyyətə gətirdikdən sonra həmin dövlətlərin varını dövlətini çalıb talamaqla məşğuldur. Bax elə uzağa getməyək bu gün onsuzda bədbəxt vəziyyətə olan Ermənistandakı indiki hakimiyyəti dəstəkləyən və arxasında dayanan kimdir? Sorosdur".



M.Səfərli bildirdi ki, Paşinyanı hakimiyyətə gətirən Corc Sorosdur: "Bu gün də Paşiniyan birbaşa Corc Sorosun diktəsi ilə oturub-durur. Azərbaycanda da belə bir fəaliyyət sərgiləmək və öz caynağına keçirmək istəyir Corc Soros. Amma bu mümkün deyil. Əli Kərimli, Sevinc Osmanqı və digərləri bu gün Sorosa işləyirlər və Soros tərəfindən maliyyələşirlər.. Ancaq reallıq budur ki, onların Azərbaycanın ictmai və siyasi həyatında heç bir rolu yoxdur. Yəni ictimai siyasi proseslərə heç bir təsir göstərmək imkanları yoxdur. Amma dediyim kimi bu adamlar öz maraqları üçün çalışırlar, ona görə də onların fəaliyyətini analiz edəndə görürsən ki, bu dövlətçilikdən uzaq bir fəaliyyətdir, Azərbaycan xalqının maraqlarından uzaq bir fəaliyyətdir. Uzağa getməyək götürək elə bu yaxınlarda ermənilərin Azərbaycana növbəti hücumu zamanı bu qüvvələrin tutduqları mövqe. Onların sərgilədiyi mövqe əslində anti-Azərbaycan mövqeyi idi, Sevinc Osmanqızı öz internet televiziya vasitəsi ilə birbaşa erməniləri müdafiə etdiyini bütün Azərbaycan xalqı gördü. Nəyə görə, onlar Dağlıq Qarabağ məsələsində Azərbaycan xalqının mövqelərinə uyğun mövqe sərgiləmirlər? Çünki onlara Soros icazə vermir, yəni onların bağlı olduğu qüvvələr buna icazə vermir. Onların elə dillərində demoktayiya deyilən söz bitib, əslində heç özləridə bilmirlər ki, bu demoktariya nə deməkdir. Əgər doğurda da bunlar demokratiya tərəfdarlarıdırsa dedib öz partiyalarındakı demokratizimi təmin etsinlər, o partiyaları yenidən qursunlar, demokratik hüquqi dövlətin ruhuna uyğun şəkildə bir islahat aparsınlar öz sıralarında. Amma bunu etmirlər, deməli onlar həm də demokratiyadan uzaqdırlar. Bir sözlə, Azərbaycan xalqı belə qüvvələrə inanmır və belə qüvvələri çoxdan çıxdağ edibdir. Bu qüvvələr özləridə onu çox gözəl başa düşürlər. Sadəcə olaraq, gündəmdə qalmaq və qazanc əldə etmək üçün yollarından dönmürlər. Demək olar ki, bunların sonuna çox az qalıbdır. Yəni Soros görəndə ki, Azərbaycandan heç nə qopara və heç nə əldə edə bilmir, onda onları bir kağız parçası kimi büküb zibil yeşiyinə atacaqdır".

***Gülyana***

# Azərbaycançılıq ideologiyasının əsas mahiyyəti

***Kim özünü azərbaycanlı hiss edirsə, o, azərbaycanlı sayıla bilər...- Heydər Əliyev***

Hər şey 90-ci illərin əvvəlində başladı. Müstəqilliyini əldə etdikdən sonra Azərbaycanda ideoloji boşluq yarandı. Boşluqdan məharətlə istifadə edən qlobal dairələr Azərbaycanda zərərli dini və etnik ideologiyaların sürətlə yayılması üçün öz planlarını, layihələrini həyata keçirməyə başladılar. Xaricdən cəmiyyətimizə yad ideologiyaların təsiri gücləndi. Bir çox siyasi, sosial, etnik, dini və sair ideoloji konsepsiyalar cəmiyyətdə parçalanma yaratmağa hesablanmışdı. Mövcud hakimiyyətin isə buna qarşı aydın konsepsiyası, qarşısını almaq üçün düşünülmüş siyasəti olmadığı üçün proses daha da sürətləndi. Bu səbəbdən də monolit cəmiyyət parçalanmağa başlamış, insanlar, əsasən də gənclər müxtəlif dini, etnik, siyasi təşkilatlara üz tutaraq bu qüvvələrin planlarını həyata keçirilməsi yolunda alətə çevrilmişdilər. Bu vəziyyət az qala vətəndaş müharibəsinə gətirib çıxaracaqdı. Lakin...

### Bu çirkin prosesin qarşısında dura biləcək şəxsiyyət var idi...

Ölkədə idarəetmənin biabırçı səviyyədə olduğunu, dövlətin dağılmağa doğru getdiyi görən xalq özü məsələyə qarışdı. 1993-cü il oktyabrın 16-da ölkənin tanınmış ziyalıları "Səs" qəzeti vasitəsilə dünyanın ən nüfuzlu siyasətçilərindən olan Heydər Əliyevə müraciət ünvanladı. Ümummilli lider xalqın çağırışına cavab verməyə bilməzdi...

Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkədə vətəndaş müharibəsinin və etnik seperatizmin yayılması planlarının qarşısını aldı, cəmiyyəti parçalanmaqdan xilas etdi. Ümummilli lider Azərbaycanda xalqın birliyinə nail olmaq üçün ortaya yeganə düzgün ideoloji konsepsiyanı- özünün yaratdığı Azərbaycançılıq ideologiyasını qoydu. Dövlət bu istiqamətdə optimal daxili siyasət həyata keçirdi. Bununla da cəmiyyətdə zərərli qütbləşməyə son qoyuldu, xalqımız və ölkəmiz vahid ideologiya əsasında inkişaf etməyə başladı.

Heydər Əliyevdən sonra bu siyasət onun layiqli davamçısı, xalqın etimadını qazanmış İlham Əliyev tərəfindən davam etdirildi. Beləliklə də xalqımız və ölkəmiz zamanın təlatümlü dövrlərini vahid ideoloji baza əsasında ləyaqətlə keçdi və bugünki inkişaf səviyyəsinə gəlib çatdı.

Məhz həmin siyasətin davam etdirilməsi ölkəmizin, xalqımızın mənəvi dəyərlərini, milli mədəniyyətini qoruyub saxladı, həm də müasir dünyaya inteqrasiyasını sağlam təməllər üzərində formalaşdırdı.

### Azərbaycançılıq ideologiyası nəyə əsaslanır?

Ümummilli lider Heydər Əliyev hesab edirdi ki, yalnız Azərbaycançılıq, respublikada yaşayan bütün millətlərin nümayəndələrinin bərabərliyi və əməkdaşlığı, vətəndaş həmrəyliyi, vahid mənəvi dəyərlərin qorunması, ümumi tarix və mədəniyyət, ümumi ünsiyyət dili etnik və dini mənsubiyyətindən asılı olmayaraq hər bir azərbaycanlıya Ümumi Vətənin qurulmasına öz töhfəsini verməyə kömək edəcək.

Azərbaycançılıq ideologiyası əsasında Azərbaycanda vətəndaş dövləti yaratmağın qısa tərifini belə vermək olar - Azərbaycan üçün vətəndaş cəmiyyəti elə bir sosial mühitdir ki, orada bütün sosial və etnik qruplar dinc yanaşı yaşayır, özlərini ölkənin siyasi və iqtisadi inkişafında, birgə yaşayış mədəniyyətinə malik olan bərabərhüquqlu vətəndaşları kimi hiss edirlər.

Ümummilli liderin "Kim özünü azərbaycanlı hiss edirsə, o, azərbaycanlı sayıla bilər" tezisi təkcə etnik cəhətdən azərbaycanlı kimi doğulanlar üçün deyil, həm də etnik bağlılığı olmadığı halda bu ölkənin bütün vətəndaşları üçün aktualdır. Bu səbəbdən də, Azərbaycan həm dünyanın müxtəlif ölkələrində yaşayan etnik olaraq bütün azərbaycanlıların, həm də Azərbaycanda yaşayan bütün fərqli etnik mənsubiyyətə malik vətəndaşların Vətəninə çevrilib.

Prezident İlham Əliyev elə siyasət həyata keçirir ki, orada milli ideya özündə mütərəqqi və hərtərəfli iqtisadi inkişafı, dünya birliyinə inteqrasiyanı, həm də milli ruhu və özünəməxsusluğu qoruyub saxlamağı ehtiva edir.

### Qlobal xəstəliklərə qarşı milli dərman

Bəzi qlobal qüvvələr ölkəmizdə yad ideologiyaların təsirinin güclü olması üçün müvafiq işlər həyata keçirirlər. Bunun üçün isə Azərbaycanda fəaliyyət göstərən bəzi QHT, KİV orqanlarından, bəzi ictimai xadimlərin imkanlarından istifadə edirlər.

Azərbaycanda əhalinin siyasi mövqeyini formalaşdırmağa cəhd edən yüzlərlə KİV və QHT var. Belə media orqanları idarə olunduqları xarici mərkəzlərdən gələn tapşırıqla onların maraqlarına cavab verən məsələlərdə xalqı səhv yönləndirməyə çalışırlar. Yəni, hər hansı bir məsələyə münasibətdə Azərbaycanın maraqları arxa plana atılır. Başqa dövlətlərin maraqlarından informasiya yayılır.

"Beşinci kolon" kritik situasiyalarda öz fəaliyyətini daha da gücləndirir, Bu məqsədlə Qərb dairələri dini və etnik cəmiyyətləri, həmçinin siyasi qüvvələri qızışdırmağa cəhd edir, onların əli ilə ölkədə vəziyyəti gərginləşdirməyə çalışırlar.

Bəzi siyasətçilər kritik situasiyalarda hətta, aşkar şəkildə Ermənistanı müdafiə edirlər, maliyyələşdikləri və idarə olunduqları xarici dövlət ilə Azərbaycan arasında müəyyən gərginlik yarananda, o dövlətin maraqlarından çıxış edirlər.

Məsələn, ABŞ və Avropadan maliyyələşən media və QHT-lər Azərbaycan xalqında qonşu dövlətlərə qarşı nifrət yaratmağa, bu ölkələrlə münasibətləri korlamağa çalışırlar. Halbuki, Ermənistan istisna olmaqla qonşu dövlətlərlə Azərbaycanın çox yaxşı münasibətləri var və bu zəmin üzərində iqtisadi əməkdaşlıqdan tutmuş, mədəni əlaqələrə qədər böyük bir sferada dostluq atmosferi hökm sürür. Başqa sözlə, Azərbaycanın maraqları istənilən dövlətlə sülh və mehriban dostluq şəraitində yaşamağı tələb edir. Lakin xaricdən idarə olunan bəzi daxili qüvvələrin məqsədi bizim maraqlarımızı deyil, başqa dövlətlərin maraqlarını müdafiə etməkdir.

Bunu çoxları bilmədən, anlamadan edirlər. Bəziləri isə bilərəkdən edirlər. Lakin xoşbəxtlikdən belə şəxslərin, təşkilatların və medianın dövlətimizin xarici siyasətinə təsir imkanları yoxdur. Dövlətimizi idarə edən hakimiyyət son dərəcə optimal, düşünülmüş siyasət yeridir və məhz bunun sayəsində ölkəmiz və xalqımız qlobal proseslərdən zərər çəkmir.

### Azərbaycanda çirkin planlar niyə alınmadı?

Adətən ölkələri necə parçalaya bilirlər? Ya etnik, ya dini, ya siyasi, ya da sosial qarşıdurmalar zəminində. Azərbaycanda bunların heç bir üçün baza yoxdur. Ölkədə elə bir mühit yaradılıb ki, etnik və ya dini ayrı-seçkilik yoxdur. Bütün dinlərin, millətlərin bu ölkədə normal yaşaması, hətta hakimiyyətin yuxarı eşalonlarında təmsil olunması üçün imkanlar yaradılıb.

Qaldı sosial məsələyə, bunun üçün də zəmin yoxdur. Azərbaycan sosial dövlətdir. Əhali dövlətin imkanlarından bəhrələnə bilir. Dövlət sosial təminata büdcənin üçdə birini ayırır. Güzəştli kateqoriya üçün mənzillər tikilir, işsizlik və yoxsulluq minimuma endirilib. Deməli, qlobal qüvvələrin əsas silahları bu ölkədə sıradan çıxarılmışdır.

Daha bir silah isə siyasi qarşıdurma ola bilərdi ki, belə bir imkan da yoxdur. Bizim cəmiyyətdə siyasi qütbləşmə dərin deyil, həm də xalqımızın siyasi savadı artıq yüksək səviyyədədir. Azərbaycanda düşünülmüş daxili və xarici siyasət, düzgün hesablanmış iqtisadi strategiya əsasında sosial dövlət kimi inkişaf edir.

Məhz Azərbaycançılıq ideologiyasının cəmiyyətdə bərqərar olması səbəbindən uzun müddətdir ki, Azərbaycanda daxili sabitlik hökm sürür. Özü də bu tendensiya qonşu ölkələrdə baş verən vətəndaş müharibələrinin, kütləvi iğtişaş və qarşıdurmaların fonunda baş verir. Azərbaycan cəmiyyəti isə belə təhlükələrdən sığortalanmışdır. Çünki vətəndaşlar ölkə hakimiyyətinin daxili siyasəti stabil və normal olaraq həyata keçirdiyinin fərqindədirlər.

Adətən xarici qüvvələrin Azərbaycanla bağlı hər hansı bir planını onların ölkəmizdəki əlaltıları qloballaşma, inteqrasiya pərdəsi altında maskalamağa cəhd edirlər. Bu pərdə altında yad dəyərləri, yad ideologiyaları cəmiyyətimizə yeritmək istəyirlər.

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında qloballaşmanın pərdəarxasını açıq şəkildə göstərir və Azərbaycanın öz milli, mədəni, mənəvi dəyərləri əsasında, başqa sözlə Azərbaycançılıq ideologiyası əsasında inkişaf edəcəyini bildirdi. Xalqımız da son dövrlərin təcrübəsindən göründüyü kimi, öz dəyərlərini qoruyub saxlamaqda əzmlidir. Bir sözlə, dövlətin və cəmiyyətin bu məsələdə fikri yekdildir. Belə ölkəni nə daxildən, nə də xaricdən dağıtmaq mümkün deyil.

**_Elçin Bayramlı_**

> Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkədə vətəndaş müharibəsinin və etnik seperatizmin yayılması planlarının qarşısını aldı, cəmiyyəti parçalanmaqdan xilas etdi. Ümummilli lider Azərbaycanda xalqın birliyinə nail olmaq üçün ortaya yeganə düzgün ideoloji konsepsiyanı- özünün yaratdığı Azərbaycançılıq ideologiyasını qoydu. Dövlət bu istiqamətdə optimal daxili siyasət həyata keçirdi. Bununla da cəmiyyətdə zərərli qütbləşməyə son qoyuldu, xalqımız və ölkəmiz vahid ideologiya əsasında inkişaf etməyə başladı.

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu**

*Bu yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbligi" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

18 sentyabr

Son səhifə

# Alkantara “Liverpul”a keçir



“Bavariya”nın futbolçusu Tiaqo Alkantara “Liverpul”a keçməyə yaxındır. Qol.az “The Athletic”ə istinadən xəbər verir ki, İngiltərə təmsilçisi bu transferlə bağlı Münhen klubuna 30 milyon avro ödəməyə razı olub.

“Liverpul”un ispan yarımmüdafiəçi ilə müqavilənin şərtləri ilə bağlı hələ razılığa gəlmədiyi bildirilib. Lakin danışıqların bu hissəsinin çətin olmayacağı vurğulanıb. Qeyd edək ki, T.Alkantara 2019/2020 mövsümündə Bundesliqada 24 matçda 3 qol vurub.

# Azərbaycan UEFA-nın reytinq cədvəlində bir pillə irəliləyib



Futbol üzrə UEFA Çempionlar Liqasının üçüncü təsnifat mərhələsinə yekun vurulduqdan sonra UEFA-nın yeni reytinq cədvəli açıqlanıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan UEFA-nın reytinq cədvəlində 1 pillə irəliləyərək 25-ci pilləyə yüksəlib. Çempionlar Liqasının üçüncü təsnifat mərhələsində “Molde” ilə qarşılaşan “Qarabağ” rəqibinə penaltilər seriyasında məğlub olsa da (5:6), ölkəmizin reytinqinə 0,250 xal qazandırıb.

Nəticədə Azərbaycanın son 5 mövsümün yekununda xalları 16,125-ə çatıb. Hesabında 15,950 xal olan Rumıniya isə 1 pillə geriləyərək 26-cı sıraya enib.

# Halil Sezai 67 yaşlı qonşusunu döydü





Türkiyəli müğənni Halil Sezainin qonşusunu döyməsi ilə bağlı xəbərlər yayılmışdı. SİA-nın məlumatına görə, ötən gün polisə ifadə verərək sərbəst buraxılan sənətçinin 67 yaşlı Hüseyn Meriçə şiddət göstərdiyi görüntülər sosial şəbəkədə yayımlanıb.

Sinan Akçıl, Fırat Tanış kimi bir çox sənət adamları H.Sezai barədə paylaşım edərək onu qınayıblar. Qeyd edək ki, mübahisəyə səbəb isə H.Sezainin kirayələdiyi evdə H.Meriçin film çəkməyə icazə verməməsi olub.

# Şabranda piyadanı vurub qaçan sürücü saxlanılıb

Şabran rayonu ərazisində idarə etdiyi avtomobillə piyadanı vuraraq hadisə yerindən yayınmış sürücü K.İsgəndərov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, sentyabrın 15-də saat 21 radələrində Şabran rayonunun Ağbaş kəndi ərazisində müəyyən edilməmiş avtomobillə yolu keçən 40-45 yaşlı kişi vurulmuş və piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb.



BDYPİ və Şabran RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində həmin şəxsin Xaçmaz rayon sakini Etibar Kərimov olması müəyyən edilib. Yol-nəqliyyat hadisəsini törədərək hadisə yerindən yayınmış “Mercedes” markalı avtomobilin sürücüsü Ağdam rayon sakini K.İsgəndərov saxlanılıb.

# Fahriye Evcen: “Burakın hər halını sevirəm”

Türkiyənin məşhur cütlüyü Burak Özçivit ilə Fahriye Evcen restorandan çıxarkən jurnalistlərin suallarını cavablandırıb.SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, “Kuruluş Osman” serialındakı obrazına görə saçlarını qısaldaraq, saqqalını uzadan aktyor “Belə çox rahatdır” söyləyib. F.Evcen isə “Burakın hər halını sevirəm, amma bu imicini daha çox bəyəndim” deyib.



Oğlu Karan dünyaya gəldikdən sonra efirdən uzaqlaşan aktrisa “Artıq aktrisalıq etmək istəyirəm, çox darıxmışam” deyərək hazırda layihələri dəyərləndirdiyini bildirib. Cütlük Bodrumda istirahət etdikləri zaman mübahisə etdikləri ilə bağlı xəbərləri yalanlayıb.

# Narkotiklə məşğul olan şəxs tutuldu

Narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini Ş.Qədimov saxlanılıb. Daxili İşlər NazirliyindənSİA-ya verilən xəbərə görə, Nəqliyyatda Baş Polis İdarəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Ş.Qədimov saxlanılıb. Şəxsi axtarış zamanı ondan 30 qrama yaxın tiryək və 450 qram marixuana aşkar edilərək götürülüb.



# Paxlavanın altında 105 min ABŞ dolları keçirmək istədi...

Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları xeyli miqdarda valyutanın Azərbaycan Respublikasının gömrük sərhədindən bəyan etmədən və gizli keçirmə cəhdinin qarşısını alıblar. SİA-nın xəbərinə görə, Bakı-İstanbul aviareysi ilə gedən sərnişin gömrük nəzarəti zonasına daxil olarkən xarici valyutanı gömrük orqanına əvvəlcədən bildirməyib, şifahi, yazılı, elektron formada bəyan etməyib.



Ona məxsus baqaj rentgen aparatından keçərkən monitorda şübhəli predmetlərin təsvirləri görünüb və təkrar baxış keçirilməsi üçün vətəndaş yoxlama otağına dəvət olunub. Yoxlama zamanı sərnişinin bel çantasının içərisində “Gəncə paxlavası” yazılan qutunun altından sellofan paketə bükülü vəziyyətdə gömrük nəzarətindən gizlədilmiş 105 min ABŞ dolları aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

# Dünyada koronavirusa yoluxanların sayı 30 milyonu ötdü!

Dünya miqyasında koronavirusa yoluxanların sayı 30 milyonu ötüb. SİA-nın məlumatına görə, hazırda bu rəqəm 30 000 360 868 nəfər təşkil edir. Ən çox yoluxmanın qeydə alındığı ölkə ABŞ-dır - 6 milyon 828 min 301 nəfər.

ABŞ-dan sonra ən çox infeksiya daşıyıcılarının olduğu 10 ölkə - Hindistan (5 milyon 118 min 253), Braziliya (4 milyon 421 min 686), Rusiya (1 milyon 79 min 519), Peru (744 min 400), Kolumbiya (736 min 377), Meksika (680 min 931), Cənubi Afrika (653 min 444), İspaniya ( 614 min 360), Argentina (589 min 12) və Çili (439 bin 287) olub. Qeyd edək ki, koronavirus infeksiyası Çinin Uhan şəhərindən yayılmağa başlayıb. Ümumdünya Səhiyyə Təşkilatı 11 martda koronavirus pandemiyası elan edib. Payız aylarında pandemiyanın ikinci dalğasının yaşanacağı ehtimal edilir.

*Aysel Məmmədova*

*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600